QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 080 (5552) 26 **aprel** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# "Türkiyə ilə Azərbaycanın birliyi, qardaşlığı, dostluğu möhkəmdir"

*Azərbaycan Prezidenti İlham Əliyev Türkiyədə rəsmi səfərdə olub*



Səh 3


Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası keçirilib



2

Azərbaycan nəsrinin görkəmli nümayəndəsi



6

"Ənənəvi mediada və sosial şəbəkələrdə dözümsüzlüyün və zorakılığın təbliği yolverilməzdir"



11

Bryansk şəhərində "Birlikdə əldə edilmiş Böyük Qələbə" adlı Forum keçirilib



7

Ermənistanda vəziyyət dalana dirənib



9

Hüseyn Abdullayev "söyüş müxalifəti"ni maliyyələşdirib



14

11

Pakistanın federal müvəkkili Azərbaycanda insan hüquqları sahəsində görülən işlər barədə məlumatlandırılıb



11

"Avropada mətbuatı təsiri altında saxlayan iqtisadi güclər siyasi senzuradan daha təhlükəlidir"



16

Paddi Lou: "Azərbaycan azarkeşlərini maraqlı mənzərə ilə sevindirmək istəyirik"



# Azərbaycan və Türkiyənin qardaşlığı əbədidir

*Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəman ilə görüşüb*



Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəman ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəman Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Görüşdə İsmayıl Qəhrəman Prezident İlham Əliyevin Türkiyəyə rəsmi səfərindən məmnunluğunu bildirdi. Türkiyə parlamentinin sədri dövlətimizin başçısının prezident seçkilərində parlaq qələbə qazanması münasibətilə təbriklərini çatdıraraq dedi: “Sizin böyük səs çoxluğu ilə qalib gəlməyiniz bizi şərəfləndirdi. Prezident İlham Əliyev təkcə öz ölkəsi üçün deyil, bölgə və dünya üçün də mühüm şəxsiyyətdir”.

Prezident İlham Əliyev səmimi təbriklərə görə Türkiyə Böyük Millət Məclisinin sədrinə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı bu səfərin əlaqələrimizin inkişafında yeni mərhələ olacağına əminliyini vurğuladı. Görüşdə ikitərəfli münasibətlərimizin uğurlu inkişafından məmnunluq ifadə edildi, parlamentlərarası əməkdaşlığın əlaqələrimizin genişlənməsinə töhfə verdiyi qeyd olundu. Söhbət zamanı Azərbaycanın və Türkiyənin regionda əməkdaşlığa və təhlükəsizliyə verdiyi töhfənin, ölkələrimizin birlikdə qlobal əhəmiyyətli böyük strateji layihələr həyata keçirməsinin əhəmiyyəti qeyd olundu.

## Prezident İlham Əliyev Ankarada Anıtqəbiri ziyarət edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəyə - Anıtqəbirə gəldi. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısı böyük Atatürkün məzarını ehtiramla ziyarət etdi.

Prezident İlham Əliyev Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoydu. Türk dünyasının böyük oğlunun əziz xatirəsi yad edildi. Sonra xatirə şəkilləri çəkdirildi. Dövlətimizin başçısı Xatirə kitabına ürək sözlərini yazdı.

## Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası keçirilib



Aprelin 25-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası keçirilib.

# “Türkiyə ilə Azərbaycanın birliyi, qardaşlığı, dostluğu möhkəmdir”

## *Azərbaycan Prezidenti İlham Əliyev Türkiyədə rəsmi səfərdə olub*



Aprelin 25-də Türkiyə Respublikası Prezidentinin Sarayında - Külliyədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə Türkiyə Prezidentinin Sarayına gəldi. Sarayın qarşısındakı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı. Prezident İlham Əliyevin şərəfinə toplardan yaylım atəşinin müşayiəti ilə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndi.

Aprelin 25-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə rəsmi səfərinin əlaqələrimizin inkişafı baxımından əhəmiyyəti qeyd olundu. Münasibətlərimizin siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu. Ölkələrimizin birlikdə həyata keçirdikləri qlobal əhəmiyyətli layihələrin əhəmiyyəti xüsusi qeyd edildi. Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

Aprelin 25-də Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.



AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclasının Protokolu”nu imzaladılar. “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında ətraf mühitin qorunması sahəsində əməkdaşlığa dair Sazişin tətbiqi ilə bağlı ikiillik (2018-2019) İş Proqramı”nı Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim və Türkiyənin ətraf mühit və şəhərsalma nazirinin müavini Mehmet Ceylan imzaladılar.

“Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkiyə Respublikasının Nəqliyyat, Dənizçilik və Rabitə Nazirliyi arasında elektron imza sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Türkiyənin nəqliyyat, dənizçilik və rabitə naziri Əhməd Arslan imzaladılar. “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında preferensial ticarət sazişi üzrə müzakirələrə dair Anlaşma Memorandumu”nu Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu imzaladılar.

“Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Mədəniyyət mərkəzlərinin təsis olunması, iş mexanizmi və fəaliyyətləri haqqında Saziş”i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu imzaladılar.

“Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında şəxsi heyətin mübadiləsinə dair Protokol”u Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akar imzaladılar.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.

### Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatı:

- Əziz qardaşım, cənab İlham Əliyev.

Hörmətli nümayəndə heyətlərinin üzvləri, dəyərli mətbuat nümayəndələri. Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevi Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası münasibətilə Ankarada qəbul etməkdən böyük məmnunluq hissi duyuram.

Dəyərli qardaşıma və nümayəndə heyətinə şəxsən öz adımdan və xalqım adımdan “Xoş gəldiniz!” deyirəm. Bildiyiniz kimi, cənab İlham Əliyev aprelin 11-də keçirilmiş və böyük səs çoxluğu ilə qələbə qazandığı prezident seçkilərindən sonra ilk səfərini Türkiyəyə edir. Bu rəsmi səfər münasibətilə xalqım adından xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Ardı Səh. 4

# "Türkiyə ilə Azərbaycanın birliyi, qardaşlığı, dostluğu möhkəmdir"

## *Azərbaycan Prezidenti İlham Əliyev Türkiyədə rəsmi səfərdə olub*



Əvvəli-Səh-3

İlk növbədə, bu uğur münasibətilə hörmətli Prezident İlham Əliyevi təbrik edirəm. İnşallah, əziz qardaşımın siyasi liderliyi ilə "Can Azərbaycan" inkişaf etməyə, güclənməyə, bölgənin sabitlik zirvəsi kimi parlamağa davam edəcək.

İnşallah, Türkiyə olaraq bu müddətdə Prezident İlham Əliyevlə birlikdə çiyin-çiyinə hər sahədə - siyasi, hərbi, iqtisadi, ticari, mədəni sahələrdə birgə fəaliyyət göstərməyə və gələcəyi qurmağa davam edəcəyik. Bu məsələdə mövqeyimiz qətidir. Xatırladığınız kimi, mən də Prezident seçildikdən sonra ilk xarici səfərimi Azərbaycana etmişdim. Bunun ənənə halı alması aramızdakı qardaşlıq əlaqələrinin ən gözəl, ən konkret nümunəsidir. İnşallah, iyunun 24-dən sonra mən də ilk xarici səfərimi Azərbaycana etmək niyyətindəyəm.

Dəyərli mətbuat nümayəndələri, bu gün cənab İlham Əliyevlə həqiqətən səmimi müzakirələr apardıq. Əvvəlcə təkbətək, sonra isə nümayəndə heyətlərinin iştirakı ilə görüşlərimiz oldu. Nümayəndə heyətlərinin iştirakı ilə görüşdə nazirlərimiz apardıqları təkbətək görüşlər barədə bizə məlumat verdilər. Həm iclasın əvvəlində, həm də sonunda biz liderlər öz fikirlərimizi bildirdik. Ötən il oktyabrın 30-da - Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VI iclasından əvvəl Azərbaycanın paytaxtında Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılışını etdik. Dünyanın ən mühüm nəqliyyat dəhlizlərindən biri olan bu xəttin səmərəli şəkildə istifadəsi istiqamətində işlərimiz davam edir. İnşallah, bu fəaliyyətimizi çox qısa müddətdə başa çatdıracağıq. Gələcək üçün yeni layihələrimiz var, onları da həyata keçirəcəyik. Təbii ki, bunlardan ən mühümü iqtisadi sahədə milli valyutaya keçməyimiz olacaq.

Bununla yanaşı, yenə də birlikdə həyata keçirməyi nəzərdə tutduğumuz layihələr var ki, bunlar çox əhəmiyyətlidir. Təbii ki, hazırda önümüzdəki ən böyük layihə məlumdur. Yaxın vaxtlarda Transanadolu təbii qaz kəməri - TANAP-ın açılışını edəcəyik. Bu açılış mərasimi, inşallah, iyunun əvvəllərində olacaq. Bu, seçkiöncəsi həm xalqımıza, həm də bütün dünyaya bizim ən yaxşı müjdəmiz olacaq.

Cənub Qaz Dəhlizinin mühüm tərkib hissəsi olan TANAP layihəsi yalnız Türkiyə ilə Azərbaycan arasında təbii qaz mübadiləsini nəzərdə tutmur, eyni zamanda, bütün Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək. Digər tərəfdən, hazırda İzmirin Əliağa rayonunda inşası davam edən "Star" neft emalı zavodunun tikintisi də yaxın vaxtlarda başa çatacaq. İnşallah, onun da açılışını sentyabrda-oktyabr aylarında yenə qardaşımla birgə həyata keçirəcəyik. Beləliklə, Azərbaycan Türkiyədə ən böyük investora çevrilir. Beləliklə, Türkiyədə bir nömrəli sərmayəçi Azərbaycan olacaq. İqtisadi və ticari əlaqələrimizin daha da inkişaf etdirilməsi prioritet hədəfimizdir. Burada ən mühüm məqsəd müdafiə sənayesi sahəsində birlikdə atacağımız addımlar olacaq.

Təbii ki, bu gün əslində önəmli bir addım atdıq. Preferensial ticarət sazişi üzrə müzakirələrə dair Anlaşma Memorandumunun imzalanmasından böyük məmnunluq duyduğumu xüsusi vurğulamaq istəyirəm. İnanıram ki, memorandumu qısa müddətdə həyata keçirəcəyik. İkitərəfli əlaqələrimizlə yanaşı, Azərbaycanla birlikdə Gürcüstan, Türkmənistan, İran və Pakistanla yaratdığımız üçtərəfli əməkdaşlıq formatı da çox mühüm əhəmiyyət kəsb edir. Bu formatlar ölkələrimiz və regionumuz üçün faydalı olacaq layihələrin davam və inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.



Ardı Səh. 5

# "Türkiyə ilə Azərbaycanın birliyi, qardaşlığı, dostluğu möhkəmdir"

## *Azərbaycan Prezidenti İlham Əliyev Türkiyədə rəsmi səfərdə olub*



Əvvəli-Səh-4

Dəyərli mətbuat nümayəndələri, 2018-ci il mayın 28-də 1918-ci ildə müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi qeyd olunacaq. Bu yubiley münasibətilə bütün Azərbaycan xalqını indidən təbrik etmək istəyirəm. Eyni zamanda, bu müstəqilliyin möhkəmlənməsində və Azərbaycanın sərhədlərinin müəyyənləşməsində töhfəsi olan Qafqaz İslam Ordusu da 100 il əvvəl yaradılıb. 2018-ci ildə Qafqaz İslam Ordusunun qəhrəman şəhidlərinin xatirəsini də layiqincə anmaq üçün ölkələrimiz lazımi hazırlıq işləri görür. "Bir millət, iki dövlət" kəlamı boş yerdən yaranmayıb. Bu kəlama görə Heydər Əliyevi rəhmətlə anırıq. Bu ifadənin altında əziz şəhidlərimizin qanları ilə yazdıqları imza var. Çanaqqala dastanında Bakının qurtuluşunda məhz bu qardaşlıq ruhuna şahid oluruq. Ölkələrimiz arasında əməkdaşlıq və həmrəylik bu gün də eyni anlayışla davam edir. Biz ortaq mövqeyimizi Dağlıq Qarabağ məsələsində də, Afrində də bütün dünyaya eyni ilə göstərmişik. 2016-cı il 15 iyun xain dövlət çevrilişi cəhdindən dərhal sonra bizə dəstək verən ilk liderlərdən biri dəyərli qardaşım İlham Əliyev olub.

Azərbaycan bu gün başda "FETÖ" olmaqla, terror təşkilatları ilə mübarizəmizdə bizə ən çox dəstək verən ölkədir. Türkiyə Silahlı Qüvvələrinin "Zeytun budağı" əməliyyatı zamanı da istər Azərbaycan hökuməti, istərsə də Azərbaycan xalqı hər zaman bizim yanımızda oldu. Biz də Dağlıq Qarabağ məsələsini lap əvvəllərdən öz problemimiz olaraq qəbul etdik. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində təcili həlli ən böyük arzumuzdur. Bu məsələdə Azərbaycana verdiyimiz dəstəyi bundan sonra da qətiyyətlə davam etdirəcəyik. Hərbi və müdafiə sənayesi sahələrindəki əməkdaşlığımızı da gücləndirməkdə qərarlıyıq.

Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı:

-Əziz qardaşım, hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, əziz qardaşım, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram. Siz qeyd etdiyiniz kimi, prezident seçkilərindən sonra mən ilk səfərimi qardaş ölkəyə etmişəm. Bu, təbiidir. Siz də qeyd etdiyiniz kimi, bu, bir ənənədir. Bu ənənə onu göstərir ki, bu gün Türkiyə və Azərbaycan dünya çapında bir-birinə ən yaxın olan ölkələrdir, ən yaxın müttəfiqlərdir.

Məni prezident seçkilərində qazandığım qələbə münasibətilə ilk təbrik edən lider əziz qardaşım olmuşdur. Bir həftə bundan əvvəl Bakıda andiçmə mərasimi keçirildi, iki gün bundan öncə hökumətin formalaşması başa çatdı və dünən mən artıq Ankarada idim. Dünən əziz qardaşımla görüşləri başladıq, bu gün davam etdik. Bugünkü mərasim, dünən və bu gün aparılan müzakirələr bir daha onu göstərir ki, Türkiyə ilə Azərbaycanın birliyi, qardaşlığı, dostluğu möhkəmdir və onun çox böyük gələcəyi vardır.

İlk növbədə, əziz qardaşımı və bütün qardaş türk xalqını əldə edilmiş uğurlar münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Əziz qardaşımın liderliyi sayəsində Türkiyə böyük və şərəfli yol keçmişdir. Biz - Azərbaycanda Türkiyəni sevən insanlar qardaş ölkədə inkişaf proseslərini çox böyük sevinclə qarşılayırıq. Prezident Rəcəb Tayyib Ərdoğanın dövründə Türkiyənin iqtisadi, siyasi, sosial inkişafı bizi ürəkdən sevindirir. Türkiyə bu gün dünya çapında bir gücdür və getdikcə bu güc daha da böyüyür, dostlar sevinir, istəməyənlərin isə kefi pozulur. Biz Azərbaycanda böyük sevinc hissi ilə Türkiyənin inkişafını görürük. Əminəm ki, Türkiyə bundan sonra da yalnız və yalnız uğurlar, qələbələr yolu ilə gedəcəkdir. Fürsətdən istifadə edərək, əziz qardaşımı seçkilərdən sonra ilk səfərini Azərbaycana etməyə dəvət edirəm ki, bu ənənə bundan sonra da yaşasın.

Biz bütün məsələlərdə bir yerdəyik. Mən qeyd etdiyim kimi, bu gün dünya çapında ikinci belə ölkələr tapılmaz ki, bir-birinə bu qədər yaxın olsun. Həm etnik köklər, mədəniyyət, tarix və həm də ortaq maraqlar baxımından da biz daim bir yerdəyik.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həllində Türkiyə qədər bizə dəstək verən ikinci ölkə olmamışdır. Türkiyə hər zaman bizimlə bərabərdir, bütün beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Bu dəstək və həmrəylik bizə əlavə güc verir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında ədalətli həllini tapmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir.

Azərbaycan da öz növbəsində bütün beynəlxalq təşkilatlarda Türkiyəni daim dəstəkləyir, Türkiyənin terrorla mücadilə yolunda hər zaman həmrəylik göstərmişdir, hər zaman Türkiyənin yanında olduğunu ifadə etmişdir. "Zeytun budağı" əməliyyatının uğurla keçirilməsi ilə bağlı bütün qardaş türk xalqını təbrik edirəm. Azərbaycan xalqı bu məsələdə də hər zaman həmrəylik göstərmişdir. Bu, bizim ümumi məsələmizdir.

Bu gün Türkiyə və Azərbaycan bizim bölgəmizdə birgə səylərlə çox böyük layihələr gerçəkləşdirir. Əziz qardaşımın dediyi kimi, Bakı-Tbilisi-Qars, TANAP tarixi layihələrdir. Bizim iradəmiz, bizim təşəbbüsümüz və birliyimiz bu layihələri həyata keçirdi. Bu gün biz Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən tərtib edirik. Bu layihələr bizim gücümüzü artırır, regional işbirliyini möhkəmləndirir və bölgədə sabitliyi təmin edir. Yəni, bizim birgə həyata keçirdiyimiz təşəbbüslər və layihələr, sadəcə olaraq, iqtisadi məna daşımır, bunların çox böyük siyasi mənası var. Bu layihələr təhlükəsizliyi, sabitliyi möhkəmləndirən layihələrdir. Əminəm ki, bundan sonra da birgə həyata keçirəcəyimiz layihələr uğurla başa çatacaq.

Biz qarşılıqlı sərmayə qoyuluşunu da artırırıq. Bu günə qədər Azərbaycan Türkiyə iqtisadiyyatına təqribən 14 milyard dollar, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan çox sərmayə qoymuşdur. Ancaq qardaş ölkələrə bu qədər yatırım qoyula bilər. Yaxın gələcəkdə TANAP-ın, "Star" neft emalı zavodunun açılışı, əlbəttə ki, bizim imkanlarımızı daha da artıracaq. Onu da qeyd etməliyəm ki, Azərbaycan sərmayəsi hesabına Ege bölgəsinin ən böyük limanı olan "Petlim" limanı inşa edilibdir. Bu, Türkiyənin üçüncü böyük limanıdır. Biz bu gün güzəştli ticarət anlaşmasının imzalanmasına yaxınlaşdıq. Ümid edirəm ki, yaxın gələcəkdə bu anlaşma imzalanacaq və beləliklə, ticarət dövriyyəsi daha da artacaqdır.

Müdafiə sahəsində birgə hərbi təlimlər həyata keçirilir. Türkiyənin çox inkişaf etmiş müdafiə sənayesi vardır və biz ordumuzun ehtiyacını, o cümlədən Türkiyədə istehsal olunan hərbi məhsullar hesabına təmin edirik. Bu gün aparılan danışıqlarda qərara gəldik ki, bundan sonra da bu istiqamətdə addımlar atılacaq. Biz görürük ki, Türkiyənin çox inkişaf etmiş müdafiə sənayesi var və istehsal olunan məhsullar ən yüksək standartlara uyğundur.

Biz bütün sahələrdə - mədəniyyət, təhsil, incəsənət, humanitar sahələrdə daim birlikdəyik. Bizi birləşdirən qədim tarix var, bizi birləşdirən yaxın tarix var. Bu ilin may ayında birinci Azərbaycan Cümhuriyyətinin 100 illiyini qeyd edəcəyik. Ondan sonra biz Qafqaz İslam Ordusunun Azərbaycan Xalq Cümhuriyyətinin Ordusu ilə birlikdə Bakını erməni quldur dəstələrindən azad etməsini birlikdə qeyd edəcəyik. Bu, şanlı tariximizdir. Bu tarix göstərir ki, biz hər zaman bir yerdə olmuşuq, bu gün də bir yerdəyik. Əminəm ki, hər zaman bir yerdə olacağıq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına rəsmi səfəri aprelin 25-də başa çatıb. Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı Ankaranın "Esenboğa" hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısını Türkiyənin Baş nazirinin müavini Fikri Işık və digər yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

# Azərbaycan nəsrinin görkəmli nümayəndəsi

*Bu gün böyük pedaqoq, alim, istedadlı yazıçı Mir Cəlal Paşayevin anadan olmasından 110 il ötür*



XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında misilsiz xidmətlər göstərmiş xeyirxah insan, görkəmli yazıçı, böyük alim Mir Cəlal Paşayevin bu gün doğum günüdür. 26 aprel tarixində dünyaya gələn ziyalı xalqımızın yaddaşında özünə əbədiyaşarlıq qazanmışdır.

Mir Cəlal həm gözəl hekayə ustası, sanballı romanlar, povestlər müəllifi kimi tanınır, həm ədəbiyyatımızın yaradıcılarından biri, həm də gözəl ədəbiyyatşünas alim kimi qiymətləndirilir. Mir Cəlal əli qələm tutan gündən ömrünün sonuna qədər həm bədii ədəbiyyat, həm də ədəbiyyatşünaslıq sahəsində eyni həvəs və coşqunluqla, eyni ardıcıllıq və uğurla yorğunluq bilmədən çalışmış, zəngin və məhsuldar yaradıcılıq yolu keçərək yüzdən artıq kitab çap etdirmişdir.

Mir Cəlal Əli oğlu Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanın Ərdəbil kəndində anadan olmuşdur. Sonralar ailəsi Gəncə şəhərinə köçmüş, ibtidai təhsilini burada almış, uşaqlıq və gənclik illərini bu şəhərdə keçirimişdir. 1924-1928-ci illərdə Gəncə Darülmüəllimində oxumuş, oranı bitirdikdən sonra Gədəbəy yeddillik məktəbinə müəllim göndərilmişdir. 1929-1930-cu illərdə 1 saylı Gəncə şəhər məktəbində direktor vəzifəsində çalışmışdır. 1930-1931-ci illərdə Kazan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakultəsində oxumuş, 1932-ci ildə Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitunun aspiranturasında təhsilini davam etdirmiş, 1933-cü ildə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin ictimai elmlər bölməsinə elmi işçi vəzifəsinə götürülmüşdür. 1936-1941-ci illərdə Pedaqoji İnstitutda və Dövlət Universitetində müəllimlik etmişdir. Mir Cəlal 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" adlı əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru, alimlik dərəcəsi almışdır.

Görkəmli nasir Mir Cəlal yaradıcılığının mövzu rəngarəngliyi, üslub xüsusiyyətləri, bütünlükdə orijinallığı ilə Azərbaycan yazıçıları içərisində özünəməxsus yer tutur. Mir Cəlal ədəbiyyatımızda gözəl hekayələr ustası, rəngarəng mövzulara həsr olunmuş romanlar yaradıcısı, ədəbiyyatımızın klassik və müasir dövrünü, müxtəlif problemlərini işıqlandıran onlarla dəyərli tədqiqat əsərinin müəllifi kimi tanınmışdır.

Mir Cəlal bədii yaradıcılığa 1928-ci ildən başlamışdır. İlk hekayə və oçerkləri 1930-cu ildə çap olunmuşdur. İlk hekayə və oçerkləri "Qızıl Gəncə", "Ədəbiyyat cəbhəsində", "Hücum" jurnallarında və "Gənc işçi" qəzetində dərc olunmuşdur. Dövrün ruhuna uyğun olaraq "Sağlam yollarda" adlandırdığı ilk oçerklər kitabı 1932-ci ildə çap olunmuşdur. O, ədəbiyyat tarixinə, tənqid və ədəbiyyatşünaslığa dair bir sıra qiymətli əsərin müəllifidir. Mir Cəlal diqqətəlayiq romanlar müəllifi kimi də tanınmışdır. "Dirilən adam" və "Bir gəncin manifesti" romanları yazıçının dəyərli əsərlərindəndir. "Bir gəncin manifesti" Mir Cəlal yaradıcılığının bütün gözəl keyfiyyətlərinin vəhdətidir, deyən Bəxtiyar Vahabzadə bunu nəinki Mir Cəlalın, Azərbaycan nəsrinin ən gözəl nümunələrindən biri kimi qiymətləndirirdi. Sonralar Mir Cəlal Azərbaycan həyatının aktual problemlərinə həsr olumuş "Açıq kitab", "Təzə şəhər", "Yolumuz hayanadır?" kimi romanlarını yazır. Gözəl roman ustadı kimi tanınan Mir Cəlal haqqında tanınmış ədəbiyyatşünas Jak Rıkaçev belə yazırdı: "Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz avtobioqrafiyasının bir hissəsi kimi görünür, canlı və səmimi həyacanı dərhal oxucuya təsir edir..."

Bədii ədəbiyyatın müxtəlif janrlarına müraciət edən Mir Cəlal yaradıcılığında kiçik hekayələr xüsusi yer tutur. 1940-cı ildə Mir Cəlalın hekayələrinin rus dilinə Əziz Şərif tərəfindən tərcümə olunması gözəl bir təşəbbüs kimi qiymətləndirilməlidir. Ədibin istedadlı gənclərə olan məhəbbətini, analıq şərəfini və uşaqlara qayğı məsələsini ürəklə tərənnüm etdiyi "Bostan oğrusu", "Yanlış barmaqlar", "Mərkəz adamı" kimi hekayələr tərbiyəvi əhəmiyyətli olduğu üçün yüksək qiymətləndirilmişdir. O, "Pərzad", "Qaymaq", "Dost görüşü", "Qonaqpərəst" kimi hekayələrində Azərbaycan xalq adət və ənənələri ilə bağlı motivlərə xüsusi diqqət yetirib, hekayələrin həyat və məişətlə üzvi əlaqəsindən bəhs edir. Böyük Vətən müharibəsinə, ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orjinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. Böyük vətən müharibəsi dövründə "hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı ədəbiyyatın da istiqamətini, yaradıcılıq pafosunu və inkişaf yolunu müəyyənləşdirən xarakterik əlamət oldu.

Böyük Vətən müharibəsi Mir Cəlalın ədəbi-elmi fəaliyyətində yeni səhifələr açır. Müharibənin əvvəllərində Uzaq Şərqdəki ordu hissələrinə gedən, habelə döyüşən ordunun həyatı ilə yaxından tanış olan ədib çoxlu oçerk, hekayə və publisist yazıları ilə nəzəri cəlb edir. Mir Cəlal "Yollar", "Axşam səfəri", "Atlı", "Snayper" hekayələrinin mövzusunu bilavasitə cəbhə həyatından, müharibə səhnələrindən götürülmüş və səciyyəvi fəaliyyət prosesində açılan döyüşçü surəti yaratmağa çalışmışdır. Böyük Vətən müharibəsinə, ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orijinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. Səməd Vurğun Onun əsərlərinin təsir gücündən yazarkən belə qeyd edir:"Aldığımız cəbhə məktubunda bir döyüşçü yazır ki, "Vətən yaraları" hekayəsini oxuduqdan sonra mən düşmənə qarşı daha kinli və amansız oldum".

Ədəbi fikrimizin tarixinə Mir Cəlal həmçinin görkəmli tənqidçi-ədəbiyyatşünas kimi də daxil olmuşdur. O, Azərbaycan ədəbiyyatının 1975-ci illərədək keçdiyi yola, sənətkarlıq, realizm və xəlqilik axtarışlarına, ədəbi prosesin mənzərəsinə, janrların vəziyyət və imkanlarına dair məzmunlu çıxışlar edir, məqalələr yazır, tədqiqat işləri aparırdı.

Mir Cəlal sadəcə bir ədib-müəllim deyildir, o alimdir, ədəbiyyatşünasdır, elmi kadrlar yetişdirmək də onun çoxcəhətli fəaliyyətinə daxildir. Müasir dövrümüzdə Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Azərbaycanın əməkdar elm xadimi, yazıçı-alim Mir Cəlal Paşayevin ədəbi və ictimai fəaliyyəti, yaradıcılıq xüsusiyyətləri, əsərlərinin yaranma tarixi öyrənilir, onun irsi gənc nəslə çatdırılır. Təsadüfi deyildir ki, bu gün təkcə Azərbaycanda deyil, onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri müxtəlif dillərdə nəşr edilərək maraqla oxunur.

Azərbaycan Respublikası Prezidentinin "UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" 2008-ci il 31 yanvar tarixli Sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilmişdir. Parisdə, UNESCO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilmişdir.

XX əsr Azərbaycan ədəbiyyatı və elminin inkişafında müstəsna xidmətləri olmuş Mir Cəlal Paşayevin 100 illiyinin UNESCO səviyyəsində qeyd edilməsi, ilk növbədə, Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür. İllər ötdükcə Mir Cəlal Paşayevin təkcə elmi irsi tədqiq edilmir, onun həm də xeyirxahlığı, böyük və əlçatmaz müəllimliyi, başəriliyi heyranlıqla qarşılanır və sevilə-sevilə qəlblərdə özünə ucalıq abidəsi qurur. Ədibin bu zirvədəki yeri daim qalacaq və onun mərhəmət sevgisi dünya durduqca yaşayacaqdır.

**NƏZAKƏT**

# 110 ilin mübarək, dünya şöhrətli ədib Mir Cəlal Paşayev!



Azərbaycanın görkəmli ədibi, alimi və ustad müəllimi Mir Cəlal Paşayevin 5 cildlik "Seçilmiş əsərləri" 1968-ci ildə onun anadan olmasının 60 illik yubileyi münasibətilə nəşr edilib oxuculara təqdim olunmuşdur.

1968-ci il mənim Azərbaycan Dövlət Universitetinə daxil olduğum ildir. Mir Cəlalın ustad müəllim kimi tələbələr arasında tanınması, universitetdə nüfuzlu şəxsiyyət olması barədə, 50 il bundan öncə, əzizləyib və qoruyub-saxladığım bu "İlk dərsin sevinci" adlı reportajı siz oxuculara təqdim etməyi özümə borc bildim.


ИЛК ДӘРСИН СЕВИНЧИ

Mir Cəlal Əli oğlu Paşayev 26 aprel 1908-ci ildə Cənubi Azərbaycanın Ərdəbil mahalının Ərdəbil kəndində anadan olmuşdur. O, Ərdəbil kəndində yaşayan böyük sahibkar, xeyriyyəçi və kənd əhalisi arasında hörməti olan nüfuzlu Mir Paşa bəyin nəvəsi idi.

Mir Cəlalın atası Əli kişi öz sahibkarı olduğu torpaqları böyük oğlanlarına verir. Mir Cəlalın isə təhsil almaq üçün Gəncəyə gətirir. Onun uşaqlıq və gənclik illəri Gəncədə keçmişdir. 1918-ci ildə atası vəfat edərkən, Mir Cəlalın cəmi 10 yaşı vardı. O, Gəncədə qalıb təhsilini davam etdirmişdir.

1928-ci ildə Pedaqoji Texnikumu bitirən Mir Cəlal Gəncədə və Gədəbəydə müəllimlik etmişdir. 1930-cu ildə Kazan şəhərindəki Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində təhsil alır, sonra Azərbaycan Elmi-Tədqiqat İnstitutunun aspiranturasında oxuyur. Mir Cəlal 1933-cü ildən Kirov adına Azərbaycan Dövlət Universitetində ömrünün sonunadək ədəbiyyatşünaslıq kafedrasının müdiri vəzifəsində çalışmış, müəllim kimi fəaliyyət göstərmişdir. Biz tələbələr onu dərin məhəbbətlə sevər və mühazirələrini böyük maraqla dinləyərdik. O, bizə ən çox yazdığı hekayəni - "İnsanlıq fəlsəfəsi"nin yollarını öyrənməyi tövsiyə edərdi.

Mir Cəlal 1940-cı ildə filologiya elmlər namizədi, 1947-ci ildə filologiya elmlər doktoru, professor adını daşımışdır. Onun elmi-tədqiqatları ədəbiyyatşünaslıq elminin ən qiymətli inciləridir. İlk qələm təcrübəsinə hələ texnikumda oxuyanda başlamış, xırda hekayələri, oçerkləri qəzet və jurnallarda dərc edilmişdir.

Mir Cəlal müəllim 6 roman və 450-yə yaxın hekayələri ilə dünyaya pəncərə açmışdır.

O, "Dirilən adam" 1935-ci il, "Bir gəncin manifesti", 1939-cu il, "Açıq kitab" 1941-ci il, "Yaşıdlarım" 1946-cı il, "Təzə şəhər" 1952-ci il, "Yolumuz hayanadır?" 1957-ci ildə qələmə aldığı romanları ilə böyük şöhrət qazanmışdır. Mir Cəlal Paşayevin 100 illik yubileyi vətənimizin hər şəhərində, rayonlarında, kənd məktəblərində və ali təhsil ocaqlarında çox böyük təntənə ilə qeyd edilmişdir. Alim Mir Cəlalın 100 illik yubileyi vətəndən çox-çox uzaqlarda YUNESKO və İSESKO-da təntənə ilə qeyd edilmişdir. Onu da deməliyəm ki, 1935-ci ildə çapdan çıxan "Dirilən adam" romanı Rusiyada rus dilinə tərcümə olunmuşdur.

Mir Cəlalın əsərləri hələ sağlığında bir çox SSR-i xalqlarının dillərində və xarici ölkələrdə nəşr edilmişdir. 1950-ci ildə bir romanı Praqada çex dilində, "Hekayələr" kitabı ilə 1953-cü ildə Buxarestdə rumın dilində çapdan çıxmışdır.

110 ilin mübarək, əziz diplom rəhbərim, çox hörmətli və unudulmaz müəllimim!

40 ildir ki, ADPU-da sənin bədii irsini tələbələrə mənimsədirəm.

Baharda gəlmişdin sən bu dünyaya,
Elmin zirvəsini yüksəltdin aya.
Qiymətini verdin hər tələbənin,
Odur ki, yüksəkdir dəyərin sənin.

***Mürsəlova Ofelya***
***ADPU-nun pedaqogika kafedrasının baş müəllimi***

# Bryansk şəhərində “Birlikdə əldə edilmiş Böyük Qələbə” adlı Forum keçirilib

## *Beynəlxalq Forumda SƏS Media Qrupun rəhbəri Bəhruz Quliyev də iştirak edib*

Dünən Rusiyanın Bryansk şəhərində Böyük Vətən müharibəsində qazanılan qələbənin ildönümünə və partizan hərəkatının 75 illiyinə həsr edilmiş “Birlikdə əldə edilmiş Böyük Qələbə: Böyük Vətən müharibəsində partizan və gizli dəstə üzvlərinin şücaəti” Beynəlxalq Qaliblər Forumu keçirilib. SİA-nın verdiyi məlumata görə, fəxri qonaqlar kürsüsündə MDB ölkələrindən, Baltikyanı ölkələrdən və Gürcüstandan 250-dən çox adam, Bransk vilayətinin şəhər və rayonlarından hərbi zabitlər, axtarış qrupları və vətənpərvər









təşkilatların və birliklərin üzvlərindən ibarət nümayəndə heyəti yer alıb.

Tədbirə toplaşanlar faşist Almaniyasına qarşı aparılan qanlı döyüşlərdən geri dönməyən atalar-oğullar, analar-qızlar, babalar-nənələr, ərlər-igidlər, qardaş və bacıların parlaq xatirəsi qarşısında baş əyiblər. Bir dəqiqəlik sükutdan sonra nəfəsli orkestrin ifasında Rusiya Federasiyasının Himni səsləndirilib.

Qeyd edək ki, “Birlikdə əldə edilmiş Böyük Qələbə” Beynəlxalq Qaliblər Forumu 2010-cu ildən MDB ölkələrinin Dövlətlərarası humanitar əməkdaşlıq fondu və Prezident qrantları Fondunun dəstəyi ilə “Avrasiya tədqiqatlar İnstitutu” İnkişaf Fondu və “Şimal-Cənub” Politologiya mərkəzi tərəfindən həyata keçirilir. Bu il layihənin təşkilatçısı və tərəfdaşları kimi Bryansk vilayətinin hökuməti və “Rusiyanın axtarış hərəkatı” Ümumrusiya ictimai Vətən müdafiəçilərinin xatirəsini əbədiləşdirmə hərəkatı çıxış edir.

Forumda MDB, Baltikyanı ölkələr, Gürcüstandan və Azərbaycandan olan 250-dən çox - müharibə veteranları, tanınmış ictimai xadimlər və siyasətçilər, tarixçi-alimlər, ictimai təşkilatların və vətənpərvərlik hərəkatlarının nümayəndələri, məşhur jurnalist və ekspertlər, gənclər hərəkatının liderləri və tələbələr, eləcə də SƏS Media Qrupun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev iştirak edib.

Beynəlxalq görüşün əsas mövzusu - Böyük Vətən müharibəsində partizan və gizli dəstələrin qəhrəmanlarının şücaətidir. Forum Böyük Qələbənin 75 illik yubileyinə hazırlığa start verəcək. Hazırlıq çərçivəsində 2018-2020-ci illər ərzində Birliyə daxil olan dövlətlərdə Böyük Vətən müharibəsinə dair xatirənin qorunması və tarixin saxtalaşdırılması ilə mübarizə istiqamətində prioritet tədbirlərin keçirilməsi nəzərdə tutulur.

# “Qoy, düşmən ayaqları altında torpaqlarımızın necə yandığını hiss etsin”







Dünən Rusiyanın Bryansk şəhərində Böyük Vətən müharibəsində qazanılan qələbənin ildönümünə və partizan hərəkatının 75 illiyinə həsr edilmiş “Birlikdə əldə edilmiş Böyük Qələbə: Böyük Vətən müharibəsində partizan və gizli dəstə üzvlərinin şücaəti” Beynəlxalq Qaliblər Forumu çərçivəsində “Qoy, düşmən ayaqları altında torpaqlarımızın necə yandığını hiss etsin” adlı sərgi keçirilib. SİA-nın verdiyi məlumata görə, təntənəli mərasimdə Rusiya prezidenti İdarəsinin regionlararası və mədəni əlaqələr şöbəsinin rəhbəri Vladimir Çernov, Rusiya Federasiyası Prezidentinin Beynəlxalq Mədəniyyət və Əməkdaşlıq üzrə xüsusi nümayəndəsi, MDB-yə üzv olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun İdarə Heyətinin həmsədri Mixail Şvıdkoy, Azərbaycanın Rusiya Federasiyasında fövqəladə və Səlahiyyətli səfiri Polad Bülbüloğlu, Bryansk vilayətinin qubernatoru Aleksandr Boqomaz və digər rəsmi şəxslər iştirak ediblər.

Məlumat verilib ki, burada toplanmış materiallar hesabına faşistlərə qarşı aparılan partizan mübarizəsində iştirak etmiş şəxslərin taleyi və fəaliyyəti barədə informasiya əldə etmək mümkün olacaq.

Qeyd edək ki, “Birlikdə əldə edilmiş Böyük Qələbə” Beynəlxalq Qaliblər Forumu 2010-cu ildən MDB ölkələrinin Dövlətlərarası humanitar əməkdaşlıq fondu və Prezident qrantları Fondunun dəstəyi ilə “Avrasiya tədqiqatlar İnstitutu” İnkişaf Fondu və “Şimal-Cənub” Politologiya mərkəzi tərəfindən həyata keçirilir. Bu il layihənin təşkilatçısı və tərəfdaşları kimi Bryansk vilayətinin hökuməti və “Rusiyanın axtarış hərəkatı” Ümumrusiya ictimai Vətən müdafiəçilərinin xatirəsini əbədiləşdirmə hərəkatı çıxış edir. Forumda MDB, Baltikyanı ölkələr, Gürcüstandan və Azərbaycandan olan 250-dən çox - müharibə veteranları, tanınmış ictimai xadimlər və siyasətçilər, tarixçi-alimlər, ictimai təşkilatların və vətənpərvərlik hərəkatlarının nümayəndələri, məşhur jurnalist və ekspertlər, gənclər hərəkatının liderləri və tələbələr, eləcə də SƏS Media Qrupun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev iştirak edib.

# Azərbaycan Ümumdünya Poçt İttifaqının Şurasına yenidən üzv seçilib

İsveçrənin paytaxtı Bern şəhərində keçirilən Ümumdünya Poçt İttifaqının (ÜPİ) yaz sessiyasında Azərbaycan Poçt Administrasiyasının nümayəndələri də iştirak edirlər. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, sözügedən tədbirlər çərçivəsində ilk plenar iclasda ÜPİ-nin ən mühüm qurumlarından biri olan QSF (Xidmət Keyfiyyəti Fondu - Quality of Service Fund) Şurasına növbəti 3 illik dövr üzrə seçkilər keçirilib və QSF Şurasına üzvlüyə dünyanın 5 coğrafi regionundan namizədlər irəli sürülüb. Şərqi Avropa və Şimali Asiya regionundan namizədliyi verilmiş ölkələrdən biri də Azərbaycan nümayəndəsi olub.


The Universal Postal Union
Quality of Service Fund Award for
Best Management
of project entitled
“Improvement of the quality of the international mail network (part 3)”
awarded to
AZERBAIJAN

Seçkilərdə ölkəmizin nümayəndəsi səs çoxluğu ilə ÜPİ-nin QSF Şurasına yenidən üzv qəbul olunub. Qeyd edək ki, Şurada dünyanın 11 ölkəsinin nümayəndələri təmsil olunur və onlardan biri də Azərbaycandır. Bundan başqa, Azərbaycan Poçt Administrasiyası tərəfindən QSF proqramı çərçivəsində həyata keçirilmiş “Beynəlxalq poçt şəbəkəsinin inkişafı (3-cü hissə)” adlı layihə ÜPİ ekspertləri tərəfindən keçirilmiş qiymətləndirmənin nəticələrinə görə ÜPİ-nin “Ən yaxşı idarəetmə” (“Best Management”) sertifikatı ilə mükafatlandırılıb. Mükafat ÜPİ-nin baş direktoru Bişar Hüseyn tərəfindən plenar iclasda Azərbaycan nümayəndələrinə təqdim edilib.

# Özünü “lider” adlandıran baş nazir: istefa verdi və xalq sevindi




***Ermənistanda bir neçə gündür davam edən etirazlar özünün yeni mərhələsinə qədəm qoyub. Müxaliflərə rəhbərlik edən Nikol Paşinyan tədricən tələblərini dilə gətirib. O, başlıca olaraq parlament tərəfindən baş nazir seçilən Serj Sarkisyanın istefasını tələb edirdi. Hətta S.Sarkisyanı dialoqa gedə bilməyəcəyi yeganə adam adlandırırdı. Lakin İrəvan otellərinin birində N.Paşinyanla S.Sarkisyanın bir neçə dəqiqəlik “dialoqu” baş tutub. Nəticəsi olmayan söz mübahisəsindən sonra görüş yerini S.Sarkisyan tərk edib. Ondan əvvəl N.Paşinyan meydanda prezident Armen Sarkisyanla görüşmüşdü. Prezident söhbətdən sonra konkret bir şey deyə bilməyib, qeyri-müəyyən ifadələr işlətmişdi. Ekspertlər hesab edirlər ki, vəziyyət çox gərgin səviyyəyə çatıb. S.Sarkisyan isə özünü lider adlandıraraq dövlət üçün işləməli olduğunu deyirdi. Xüsusilə, Qarabağ məsələsini “layiqli həll etməli” olduğundan dəm vururdu. Yalnız bundan sonra “lider başqa işlə məşğul ola bilər”miş. Bu gülünc xülyaların fonunda S.Sarkisyanın istefası və Ermənistanda siyasi proseslərin daxili məntiqi və onun region üçün mümkün nəticələri üzərində bir qədər geniş dayanmaq zərurəti özünü göstərməkdədir.***

## İki haqsız: kim daha çox “haqlıdır”?

Bir sıra dairələrin “azad ölkə” adlandırdığı Ermənistanda iğtişaşlar yeni səviyyəyə yüksəlib. Vətəndaşların ən adi hüquqlarının təmin olunmadığı bir məmləkətdə proseslərin gedişatı göstərir ki, demokratiya və insan haqları deyilən amillərdən əsər-əlamət yoxdur. Bir tərəfdə radikal davranışlar edən etirazçı qrup, o biri tərəfdə isə hakimiyyətdən iki əllə yapışmış Serj Sarkisyan. Hər iki tərəf də özünü haqlı sayırdı. Ancaq sonradan S.Sarkisyan “mən haqsızam, Nikol Paşinyan haqlıdır” dedi. Bu ibarələrin arxasında hansı məqamlar dayanır?

Aydındır ki, siyasətçinin hansının haqlı olmasından asılı olmayaraq meydana çıxan gərginliklərdən sadə insanlar zərər görürlər. Rusiya KİV-lərinin yaydığı informasiyaya görə, İrəvanda keçirilən aksiyada iştirak edənlərdən 300 nəfər həbs edilmişdi, sonradan hamısını azadlığa buraxdılar. Polis etirazçıların parlamentə daxil olmasına imkan verməmişdi, sərt güc tətbiqi ilə nümayişçilər uzaqlaşdırılmışdı.

Etirazçıların liderləri Nikol Paşinyanın ABŞ-da fəaliyyət göstərən bir musiqi qrupunun erməni rəhbərinə müraciəti də yadda qaldı. Musiqiçi videomüraciətdə bildirib ki, islahatlar paketi təqdim edin və ətraf mühitin təmizliyi uğrunda mübarizə aparın. Bununla yanaşı, o da S.Sarkisyana “artıq bəsdir” mesajını göndərmişdi.

Bütövlükdə N.Paşinyanın tələbləri belə idi: baş nazirin istefası, parlamentin xalqdan olan namizədi seçməsi (“xalq” deyəndə nə nəzərdə tutulur bilinmir, çünki siyasi diferensiasiyanın mövcud olduğu bir cəmiyyətdə siyasi səhnədə xalq olmur), müvəqqəti hökumətin formalaşdırılması, hökumətin qəbul etdiyi proqramın rədd edilməsi, növbədənkənar parlament seçkisinin keçirilməsi, bunlardan başqa, seçki məcəlləsinə və partiyalar haqqında qanuna dəyişiklik edilməsi (bax: Prezident Armenii provel vstreçu s liderom oppoziüii / RİA Novosti, 21 aprel 2018).

Bu şərtlərdən görünür ki, etirazçılar ölkədə demokratiyanın olmadığına qəti əmindirlər. Çünki tələblərdə həm seçki mexanizminə, həm seçki qanununa, həm hökumətin fəaliyyətinə, həm də parlamentin qəbul etdiyi qərarlara iradlar vardır. N.Paşinyan faktiki olaraq bütün seçki prosedurunun və hakimiyyəti formalaşdırma mexanizminin yenilənməsində israrlıdır. Bəs onda illərdir ki, S.Sarkisyanın seçkilərini “azad ölkə”, “Cənubi Qafqazda demokratiyanın gözləndiyi ölkə”, “insan haqlarının əməl olunduğu ölkə” kimi epitetlərlə qiymətləndirərək qulaqları deşən beynəlxalq ekspertlər hansı məqsədlə ağ yalan danışırlarmış?

Əslində, məqsədləri bilinir. Onlar dini təəssübkeşlik və islamofobiya xəstələridir. Əsrlərdir ki, erməni terrorunu müxtəlif bəhanələrlə dəstəkləyənlər indi yeni yalanlar uydurmaqdadırlar. Lakin bu dəfə bir qədər fərqli situasiya yaranıb. Məsələ ondan ibarətdir ki, ermənləri qonşu ölkələrin dövlətçiliyini zəiflətməyə istiqamətləndirmək bir şeydir, artıq əsrlərdir etirazçı, böhtançı, iftiraçı ruhunda yetişdirilmiş bir toplumun müstəqil dövlət qurmasını təmin etmək başqa şeydir. Ermənilər artıq etirazdan, radikallıqdan və separatçılıqdan başqa bir şey bacarmırlar. Bu keyfiyyətlərlə isə dövlət qurmaq mümkün deyildir. Onların siyasi və mənəvi şüuru kökündən yanlış meyarlar üzərində qurulub.

## Siyasi-ideoloji iflas: Ermənistan cəmiyyəti yeni qeyri-müəyyənlik yolunda

Nə isə, bu gün Ermənistanda müşahidə edilən proseslərin daxili məntiqinə qayıtsaq, görürük ki, iki tərəf bir-birinə qarşı düşməncəsinə mövqe tutub. Baxmayaraq ki, Nikol Paşinyan “kimsəyə düşmən münasibət göstərmirik” kimi fikirlər işlədir, ekspertlər Qarabağ klanına qarşı total hücumların ola biləcəyini vurğulayırlar. Bu da artıq monoetnik dövlətin siyasi məqamlar üzrə parçalanması əlamətidir. Bəzilərinin bütöv erməni cəmiyyəti kimi xülyaları puç olub gedib. Siyasi barrikadaların əks tərəfində duran qüvvələr bir-birini didməyə hazırdırlar. Onları Qarabağ məsələsi də ortaq mövqeyə gətirə bilmir. Deməli, illərdir ki, süni surətdə sadə ermənilərin psixologiyasına yeridilən bu qondarma məsələ ilə bağlı da müəyyən dəyişikliklər baş verməkdədir. Bir sıra etirazçılar “Azərbaycan torpaqlarında nə işimiz var” kimi fikir bildirməkdən çəkinmirlər.

Bəs Serj Sarkisyan bütün bunlara sözdə necə reaksiya verib? Gülüncdür! Birincisi, S.Sarkisyan istefa vermək fikrində olmadığını dəfələrlə dolayı da olsa bəyan edib. O, hakimiyyətdə qalmaqda israrlı olduğunu konstitusiyada dəyişiklik edib, parlament üsulidarəsinə keçəndə gizli olaraq ifadə etmişdi. Belə ki, sözdə deyirdi ki, baş nazirliyə iddia etməyəcək. Ancaq komandasının üzvləri daim onun Ermənistanı idarə edə biləcək yeganə namizəd kimi təbliğ edirdilər.

Burada qeyri-adi bir şey yoxdur, çünki onun arxasında Ermənistan miqyasında böyük sayıla biləcək siyasi qruplaşma durur. Bu qruplaşmanın öz iqtisadi, maliyyə, energetik və hərbi dayaqları vardır. Korporativ maraqları sərt şəkildə müdafiə edirlər. Həmin qrup heç zaman müxalif qüvvənin tələbi ilə bu maraqlardan imtina edə bilməz - dərhal məhv edərlər!

Bunlar onu göstərir ki, küçədən S.Sarkisyanın istefasını tələb etmək aysberqin görünən tərəfidir. Əsas məqam ondan ibarətdir ki, Ermənistanda mürəkkəb korrupsiya sistemi yaratmış və siyasiləşmiş qruplar havadarlarının əmri ilə daxildə savaşa başlayıblar. Onların bir qrupunun arxasında Qərb, digərinin arxasında isə Rusiya dayanır. Təbii ki, belə şəraitdə nə xalqın iradəsindən, nə də müstəqil dövlət qurmaq istəyindən söhbət gedə bilməz. Tərəflər kimin daha çox hakimiyyət və geosiyasi nüfuz əldə etməsi üçün savaşırlar. İndiki mərhələdə S.Sarkisyan qruplaşması geri çəkildi, ancaq bu, savaşın sonudurmu? Ekspertlər bu suala müsbət cavab verməkdə çətinlik çəkirlər. Çox şey S.Sarkisyanın təmsil etdiyi klana olacaq münasibətdən asılıdır.

Bu prosesdə maraqlı olan bir ideoloji cəhət də var. Biz daşnakların S.Sarkisyanla bir cəbhədə olmasını nəzərdə tuturuq. Belə çıxır ki, etirazçılar bilərəkdən, yaxud bilməyərəkdən milliyyətçilikləri ilə daim seçilən daşnaklara qarşı da çıxış edirlər. Bu, bütövlükdə Ermənistanda siyasi-ideoloji şüurda dəyişikliyin baş verməsi anlamına gəlirmi? Bunu proseslərin gedişatı göstərəcək. Hər bir halda, ermənilərə görə, daşnaklar da satqın Sarkisyanla bir sırada dayanmaqdadırlar.

İkincisi, nə qədər gülməli də olsa, S.Sarkisyan özünü “lider” adlandırıb. Bu keyfiyyətdə Ermənistanın təhlükəsiz inkişafına və “Dağlıq Qarabağ məsələsinin layiqli həllinə nail olmadan” vəzifədən getmək fikrində olmadığını bəyan edib (bax: Serj Sarqsən nazval usloviə otstavki / RİA Novosti, 22 aprel 2018). Ancaq bu qədər gurultulu sözlərdən sonra “mən səhv etmişəm”, deyib. Belə çıxır ki, S.Sarkisyan hər kəlməsində saxta və yalançıdır. O, hər an mövqeyini dəyişə bilər.

Ekspertlər də S.Sarkisyanın özünü “lider” adlandırması məqamı üzərində dayanırlar və bunu real saymadıqlarını vurğulayırlar. Digər tərəfdən isə etirazçılar məhz S.Sarkisyanın liderlik keyfiyyətinin olmamasına görə küçələrə axışmışdılar. Onlar Ermənistanı naşı adamların idarə etdiyini bəyan edirlər. Bildirirlər ki, həmin naşıların başında S.Sarkisyan dayanır. Belə çıxır ki, S.Sarkisyanla müxalifət arasında siyasi liderlik anlayışında ciddi fərqlər vardır. Və bu fərqlərin aradan qaldırılma ehtimalı minimumdur, çünki yanaşma meyarları tamamilə əks-qütblərdədir. Nəticə də bunu təsdiq etdi.

Normallaşma, yoxsa yeni səviyyədə gərginlik: ekspertlər sonuncuya üstünlük verirlər

Bütün bunlardan məntiqi olaraq siyasi qənaətlər alınır. Ermənistanda siyasi vəziyyət daha gərgin mərhələyə qədəm qoyur. Müxalifətin bir qrupu o qədər dərinə

# Özünü “lider” adlandıran baş nazir: istefa verdi və xalq sevindi

gedib ki, artıq geriyə dönüş yoxdur. Yəni, qarşı duran tərəflərdən biri mütləq sıradan çıxarılmalıdır. Ya Serj Sarkisyan öz komandası ilə siyasi səhnəni tərk etməlidir, ya da “Yelk” adlı siyasi fraksiya məhv edilməlidir. Bu məqam Ermənistanın siyasi mühitinə kifayət qədər radikal ruh verir və proseslərin getdikcə daha çox iğtişaş xarakterli olmasına aparıb çıxara bilər.

Məsələnin bu tərəfi xüsusilə region üçün aktualdır. Yəni, situasiyanın S.Sarkisyanın istefa verməsi ilə normallaşacağını proqnozlaşdırmaq xeyli risklidir. S.Sarkisyanın istefasına olan xarici reaksiyalar da belə bir fikir söyləməyə əsas verir. Bu reaksiyalar fərqlidir. Lakin maraqlıdır ki, həm Qərb, həm də Rusiya Ermənistanda gedən prosesləri müsbət qiymətləndirirlər. Hər halda, mətbuatda belə informasiyalar yayılır.

Əvvəlcə Rusiya KİV-lərində verilən proqnozlara nəzər salaq. Öncə Moskvanın Ermənistandakı proseslərə münasibətindəki ziddiyyətlər diqqəti çəkdi. Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədrinin birinci müavini Konstantin Zatulin bəyan edib ki, “biz hələ cənab Paşinyanın nə istədiyini və kimə qulluq etdiyini bilmirik”. Alınan informasiyalara görə, o, Qərb meyllidir, Ermənistanın Rusiyadan uzaq düşməsini və rus hərbi bazasının Gümrüdən çıxarılmasını tələb edir. Belə çıxır ki, Moskva Nikol Paşinyanın başçılıq etdiyi hərəkata ya inanmır, ya da ikili oyun oynayır. Hər bir halda, Rusiya XİN-in sözçüsü Mariya Zaxarova “Facebook” səhifəsində yazdı ki, “erməni xalqı birlik nümayiş etdirdi, ən çətin zamanda belə parçalanmadığını və qarşıdurmaya getmədiyini göstərdi. Ermənistan, Rusiya həmişə səninlədir”.

Təbii ki, rus diplomatiyası dərindir və yalnız zaman Zatulinin, yaxud Zaxarovanın həqiqəti söylədiyini göstərə biləcək. Bununla yanaşı, Rusiya ekspertləri kifayət qədər konkret mövqe ortaya qoyurlar. Onların əksəriyyəti Ermənistanın Rusiyaya sadiq qaldığını və hətta başqa yol olmadığını yazırlar. Onlar vurğulayırlar ki, Ermənistan dövlətini Rusiya yaradıb və indiyə qədər də Moskva erməniləri qoruyub, onlara havadarlıq edib. Bu funksiyanı Rusiyadan başqa heç kəs yerinə yetirə bilməz. Nə ABŞ, nə Fransa, nə də Almaniya buna qadir deyil.

Ermənistana gəldikdə isə, Rusiya ekspertləri yazırlar ki, onu Türkiyə və Azərbaycan əhatə edib. Moskva əlini çəksə, Ermənistan dövlət kimi məhv olacaq. Əslində, Rusiya siyasi və analitik dairələrində bu cür fikirlər həmişə mövcud olub. Məsələn, özünün ermənipərəst və anti-azərbaycan mövqeyi ilə fərqlənən “Regnum” agentliyinin başçısı Modest Kolerov bir zamanlar yazmışdı ki, Rusiyasız Ermənistan yoxdur. Yəni, ermənilər özlərini müstəqil dövlət kimi hiss etməyə cəsarətlənməsinlər. Rusiya kənarda dursa, Ermənistan bir an içində yox olar.

Lakin bu dəfə ekspertlərin S.Sarkisyanın istefası ilə bağlı bu cür fikir bildirməsi, ortada Rusiyanın maraqlarına qarşı hansısa məqamların olması anlamına gəlir. Və bunun işartıları N.Paşinyanın S.Sarkisyanın istefasından sonra ifadə etdiyi fikirlərdə vardır. Müxalifətçi deyib ki, biz işimizi yarımçıq buraxmamalıyıq. O, Karen Karapetyanla görüşməyə hazır olduğunu bəyan edib. Tələblər isə vardır - parlamentin yeni seçki qanunu tərtib etməsi və xalqın irəli sürdüyü namizədi seçməsi, müvəqqəti hökumətin yalnız bundan sonra formalaşdırılması və növbədənkənar yeni seçkinin keçirilməsi.

### Kimin arxasınca: ermənilərin geosiyasi seçim qeyri-müəyyənliyi

Nikol Paşinyan onu da vurğulayıb ki, istefa məsələsi son deyil, çünki Serj Sarkisyan və onun tərəfdarları arxa plandan ölkəni idarə etməyə çalışırlar. Yəni, bir növ Gürcüstan ssenarisi təkrarlana bilər. Buna görə də, “məxməri inqilab” sona çatdırılmalıdır - yalnız xalqın namizədi baş nazir ola bilər və o, müstəqil fəaliyyət göstərməlidir. Anlaşılır ki, Karen Karapetyanı müxalifət həmin keyfiyyətdə görmür.

Bunlar faktiki olaraq, “Qazprom”un kadrı olan K.Karapetyanı inkar etmək deməkdir. Təbii ki, bu, Moskvanı qane etməz və prosesə mütləq müxtəlif kanallarla müdaxilə edəcək. Görünür, elə bu səbəbdəndir ki, Rusiya KİV-lərində aparılan analizlərdə daim “Ermənistan və Rusiya birdir” şüarı yer alır. Bu, gələcək mümkün müdaxilələrə ideoloji-informasiya bazası yaradır.

Qərbin reaksiyasında ermənilərin tərifi başlıca yer tutmaqdadır. Onlar ermənilərin “mədəni inqilab” etdiyindən, “erməni baharı”ndan dəm vururlar. Belə proqnozlaşdırılır ki, Ermənistan diasporun köməyi ilə Avropa İttifaqına yaxınlaşmağa çalışacaq. Çünki erməni diasporunun Qərbdə mövqeyi möhkəmdir. Ancaq Rusiyada yaşayan ermənilər hesab edirlər ki, belə deyil. Erməni diasporu Rusiyada daha güclüdür və onların sayı təxminən Ermənistanda yaşayan ermənilər qədərdir.

Belə çıxır ki, Qərb Ermənistanda baş verənləri geosiyasi və ideoloji-siyasi aspektlərdə özü üçün faydalı sayır. Bu məqamda onlar ermənilərə haqq qazandırırlar, onlarla bir olduqları mesajları verirlər.

Qərb və Rusiyanın Ermənistanda baş verənlərə münasibətlərinin geosiyasi müqayisəsi hansı nəticələri çıxarmağa əsas verir? Açıq görünür ki, Ermənistanın geosiyasi yönünü dəyişmək cəhdi vardır. Qərb arzulayır ki, oraya Rusiyanın təsiri azalsın. Bunun üçün hətta rus qoşunlarının Ermənistandan çıxarılmasını və ölkənin KTMT-ni tərk etməsini tələb edə bilərlər.

Bu tələb nə dərəcədə realdır? Məsələ ondan ibarətdir ki, Rusiya tamamilə Ermənistana sahib dövlətdir. Ölkənin bütün infrastrukturu, strateji obyektləri Moskvanın nəzarəti altındadır. Ermənilər ancaq Kremlin birbaşa himayədarlığı sayəsində ayaqda dura bilirlər. Hazırkı geosiyasi vəziyyət elədir ki, Rusiyanın Ermənistanda zəifləməsi özünün çökməsinə təkan verə bilər. Yaxın Şərqdə Amerika və Avropanın böyük dövlətləri ilə geosiyasi-hərbi savaş aparan Rusiyanın tam nəzarət etdiyi kiçik Ermənistanda mövqeyini kiməsə verəcəyi absurd deyilmi?

Rusiya KİV-lərində işıq üzü görən yazılarda K.Karapetyanın baş nazirliyə real namizəd olduğunu da vurğulayırlar. Onun qarşısını S.Sarkisyanın korrupsiya şəbəkəsinin aldığını qeyd edirlər. Onda belə çıxır ki, S.Sarkisyan siyasi səhnədən getdikdən sonra K.Karapetyan daha geniş miqyasda fəaliyyət göstərə bilər. Məhz bu tezis analitiklərin məqalələrində birbaşa və ya dolayı olaraq ortaya atılır. Ancaq onu nəzərə almaq lazımdır ki, N.Paşinyanın təmsil etdiyi “Yelk” fraksiyası parlamentdə dəfələrlə Ermənistanın Qərblə yaxınlaşması tələbini qoyub. Yuxarıda vurğuladığımız kimi, onlar S.Sarkisyanın Avrasiya İqtisadi İttifaqına üstünlük verməsini böyük fəlakət adlandırıblar.

Bunlardan belə çıxır ki, “Paşinyan hərəkatı” ya kimlərinsə gözə kül üfürməsidir, ya da kiçik millətçilərin şıltaqlığıdır. Gec və ya tez onlar Ermənistanın əsl sahibinin kim olduğunu bir daha anlayacaqlar. Lakin məsələ bununla bitmir. Belə ki, hələlik baş verənlərə Levon Ter-Petrosyan və Robert Koçaryanın tərəfdarları qarışmırlar. Onların gözləmə mövqeyində olması da müəyyən şübhələr yaradır. Yəni, N.Paşinyanı meydana konkret dairələrin atdığı təəssüratı formalaşır ki, onların sırasında L.T.-Petrosyan və R.Koçaryan da var. Yaxud da L.T.-Petrosyan, R.Koçaryan və S.Sarkisyan eyni dairənin adamlarıdırlar. Bu məsələ də yaxın gələcəkdə aydın ola bilər.

Bunlar Ermənistanda suların nəinki durulduğunu, hətta daha da bulandığını göstərir. Hazırda bu ölkə regionun ən həssas məkanına çevrilib. Orada istənilən an vəziyyət nəzarətdən çıxa bilər. Bunun fonunda isə bütövlükdə Cənubi Qafqazda risklər çoxalar.

Bütün hallarda Ermənistanın dərin siyasi böhrana düçar olduğu haqqında nəticə çıxarmaq olar. Nə qədər gizlətsələr də, Serj Sarkisyanın yaratdığı korrupsiya şəbəkəsi ilə rəqiblərinin toqquşması ehtimalı çoxdur. Eyni zamanda, uzun müddətdir ki, yalan üzərində qurulan daxili və xarici siyasət tam iflasa uğrayıb. İnsanlar ölkəni kütləvi surətdə tərk edirlər. İqtisadi böhran xarici siyasətdəki uğursuzluqlar və absurd addımlarla bir-birini tamamlayır. Kənardan olan təsirləri də nəzərə alsaq, Ermənistanın növbəti qaranlıq vəziyyətə düşməkdə olduğunu deyə bilərik. Yuxarıda vurğuladığımız kimi, Amerika və Rusiya Cənubi Qafqaz uğrunda daha sərt savaşa başlayıblar. Onlar üçün regionda ən zəif həlqə isə Ermənistandır. İndi siyasi cəhətdən silkələnən vassal erməni dövləti Cənubi Qafqazda təlatümlərə səbəb ola bilər. Bu bağlılıqda ekspertlərin “erməni baharı” adlandırdığı proseslər çox yaxın gələcəkdə bütövlükdə postsovet məkanının xaos qaynağı ola bilər. Bu, “ərəb baharı”ndan daha “şaxtalı” ola bilər. Çünki böyük bir geosiyasi məkanı əhatə edər və çoxlu sayda millətlərin buxovuna çevrilər.

**Newtimes.az**

## Ermənistanlı nazir istefa verib və idmançıları xalqa qoşulmağa səsləyib

Erməni dövləti qarşısında Ermənistanın hər bir vətəndaşının məsuliyyətini dərk edərək, bütün idmançıları Respublika meydanında xalqa qoşulmağa çağırıram. AZƏRTAC xəbər verir ki, idman və gənclik naziri vəzifəsini icra edən Hraçya Rostomyan bu çağırışı yerli mətbuatı vasitəsi ilə edib. O bildirib ki, siyasi mübarizədə xalq bir məqsəd ətrafında birləşməlidir.

H.Rostomyan, eyni zamanda, tutduğu vəzifədən istefa verib. Onun çağırışından sonra ölkənin məşhur idmançıları mitinqçilərin sıralarında görünüb. Belə ki, olimpiya çempionu Artur Aleksanyan, dünya çempionu Maksim Manukyan və bir çox digər məşhur idmançı etiraz aksiyalarına qoşulub. Hazırda idmançılar MOK-un binası yaxınlığında toplaşıb və xalqı siyasi mübarizəyə çağırırlar.

## Ermənistanda vəziyyət dalana dirənib



Ermənistan baş nazirinin səlahiyyətlərini icra edən Karen Karapetyan prezident Armen Sarkisyandan ölkədə növbədənkənar parlament seçkiləri təyin etməyi xahiş edib.

AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, Karapetyan parlament seçkilərində müxalifət lideri Nikol Paşinyanın qələbə qazanacağı ehtimalını inandırıcı hesab edib. “Yaranmış vəziyyət dalana dirənib. Paşinyan bəyan edib ki, müvəqqəti baş nazir xalqın namizədi, yəni özü olmalıdır. Mən prezidentdən siyasi qüvvələrlə məsləhətləşməyi və yeni parlament seçkilərinin təyin olunmasını xahiş etdim. Əgər Ermənistan vətəndaşları Paşinyanı seçmək istəsələr, ölkənin baş naziri məhz o olacaq”, - deyə Karapetyan bildirib. Bir qədər əvvəl müxalifət lideri “xalqın namizədinin” baş nazir olmayacağı təqdirdə növbədənkənar seçkilərə razılıq verməyəcəyini demişdi. Paşinyan və Karapetyan aprelin 25-də danışıqlara başlamalı idi. Lakin dünən axşam saatlarında Paşinyan dialoqdan imtina edib və etiraz aksiyalarını davam etdirmək qərarına gəlib. Bu arada Ermənistan prezidenti Armen Sarkisyan ölkədə yaranmış mürəkkəb vəziyyəti və çıxış yollarını müzakirə etmək üçün parlamentdə təmsil olunan və olunmayan siyasi qüvvələrlə məsləhətləşmələrə başlayıb.

# Akademik Akif Əlizadəyə ADNSU-nun fəxri professoru diplomu təqdim olunub





Dünən Azərbaycan Dövlət Neft və Sənaye Universitetində AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə universitetin fəxri professoru diplomu təqdim olunub. Tədbirdə Azərbaycan Respublikasının Təhsil naziri Ceyhun Bayramov, AMEA-nın həqiqi və müxbir üzvləri, ADNSU-nun professor-müəllim heyəti iştirak ediblər.

Təqdimat mərasimində universitetin rektoru, professor Mustafa Babanlı çıxış edərək, akademik A.Əlizadənin həyat və fəaliyyəti barədə ətraflı məlumat verib. Görkəmli alimi ölkəmizdə elmi-texniki tərəqqinin və təhsilin hərtərəfli inkişafında əvəzsiz xidmətləri olan təşkilatçı, ensiklopedik təfəkkürə malik şəxsiyyət kimi səciyyələndirən rektor akademikin ADNSU-nun məzunu olmasından bu ali məktəbin bütün müəllim və tələbə heyətinin böyük fərəh hissi keçirdiyini bildirib. AMEA-nın prezidentinin daim doğma tədris ocağı ilə əlaqə saxladığını deyən M.Babanlı tələbələrə akademik Akif Əlizadə adına təqaüdün veriləcəyinin də nəzərdə tutulduğunu bildirib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Təhsil naziri Ceyhun Bayramov akademik Akif Əlizadənin Azərbaycanda elmin, o cümlədən, geologiya və geofizika sahələrinin inkişafında, həmçinin gənc kadrların formalaşmasında və alim kimi yetişməsində mühüm rolundan söz açıb. AMEA rəhbərinin respublikanın sabit inkişafını təmin edən neft və qaz, polimetal və filiz, qeyri-metal faydalı qazıntı yataqlarının kəşf olunmasındakı böyük xidmətlərindən danışan C.Bayramov onun keçdiyi şərəfli həyat yolunun hər bir tələbə və gənc alim üçün örnək olduğunu bildirib.

Tədbirdə ADNSU-nun professoru, akademik Pərviz Məmmədov, ADNSU-nun nəzdindəki Neftin, Qazın Geotexnoloji Problemləri və Kimya Elmi Tədqiqat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Elmira Ramazanova çıxış edərək, A.Əlizadənin elmə verdiyi töhfələrdən danışıblar.

Daha sonra akademik A.Əlizadə çıxış edərək, müasir dünyada elmin, təhsilin mühüm rolunu vurğulayıb, ölkəmizdə bu sahənin inkişafı ilə bağlı reallaşdırılan tədbirlərdən, layihələrdən söz açıb.

Sonda AMEA-nın prezidentinə ADNSU-nun fəxri professoru diplomu təqdim edilib.

***ZÜMRÜD***

# Azərbaycan QHT-ləri 31 Mart - Azərbaycanlıların soyqırımının 100 illiyi ilə bağlı bəyanat yayıb



Beynəlxalq ictimaiyyəti gec də olsa 1918-ci ildə Cənubi Qafqazda ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı hadisəsinə siyasi qiymət verməyə və Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını azad etməsi üçün sərt sanksiyalar qəbul etməyə çağırırıq. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu çağırış aprelin 25-də Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının üzvlərinin Quba Soyqırımı Memorial Kompleksində 31 Mart - Azərbaycanlıların soyqırımının 100 illiyi ilə bağlı yaydığı bəyanatda öz əksini tapıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasında təmsil olunan QHT-lərin nümayəndələri əvvəlcə ümummilli lider Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, xatirəsini ehtiramla anıblar. Sonra 1918-ci ildə Qubada cinayətkar erməni hərbi dəstələri tərəfindən törədilmiş soyqırımı qurbanlarının dəfn edildiyi yerdə ucaldılmış abidə ziyarət olunub.

Bildirilib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb. Kompleksdə XX əsrin əvvəllərində Quba şəhərinin müxtəlif ərazilərinin görüntüləri, o zaman burada aparılan tikinti-quruculuq işləri, əhalinin həyat tərzi haqqında fotolar var. Burada quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür. Diqqətə çatdırılıb ki, Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkarlanıb. Bundan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işləri aparılıb. Tədqiqatlar nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyən edilib.

Quba Soyqırımı Memorial Kompleksi ilə tanışlıqdan sonra 31 Mart - Azərbaycanlıların soyqırımının 100 illiyi ilə bağlı bəyanat oxunub.

Bəyanatda deyilir: "Ötən əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımından 100 il ötür. 1918-ci ilin mart ayından etibarən erməni silahlı dəstələri yalnız milli və dini mənsubiyyətinə görə on minlərlə azərbaycanlını ən qəddar və vəhşi üsullarla qətlə yetirib, həmçinin xalqımıza məxsus nadir tarixi və mədəniyyət abidələrini, ibadət ocaqlarını və qəbiristanlıqları dağıdıb. Azərbaycan torpaqlarında "böyük Ermənistan" qurmaq xəyalını gerçəkləşdirmək üçün ermənilər 1918-ci ildə soyqırımı, etnik təmizləmə və deportasiya siyasəti apararaq regionun siyasi xəritəsini dəyişdirməyə cəhd göstərirdilər. Qısa zaman ərzində ermənilər Şamaxı, Quba, İrəvan, Zəngəzur, Qarabağ, Şirvan, Naxçıvan, Lənkəran və digər ərazilərdə misli görünməmiş qırğınlar törədiblər.

1918-ci ilin ilk beş ayı ərzində Qubada xüsusi vəhşiliklə 16 mindən artıq insan öldürülüb, 167 kənd məhv edilib. Bu kəndlərdən 35-i yer üzündən silinib. Şamaxının 70-dən çox kəndi tamamilə məhv edilib, 7 min nəfər öldürülüb. Zəngəzur qəzasında 10 min 68 nəfər qətlə yetirilib, 115 kənd dağıdılıb.

Ermənilər, həmçinin Qubada yerli xalqlara qarşı da açıq qətliam törədiblər. Azərbaycan Xalq Cümhuriyyəti azərbaycanlılara qarşı törədilmiş zorakılığın araşdırılması məqsədilə 1918-ci il iyulun 15-də Fövqəladə İstintaq Komissiyası yaradıb. Bu, azərbaycanlılara qarşı törədilmiş soyqırımı siyasətinin siyasi və hüquqi qiymətləndirilməsi üçün atılan ilk addım idi. Ancaq Cümhuriyyətin süqutu bu prosesin başa çatdırılmasına imkan verməyib.

Soyqırımından sonra tarixi torpaqlarımıza - İrəvana, Zəngəzura, Qarabağa, Naxçıvana və digər bölgələrə İran və Türkiyədən minlərlə erməni ailəsi köçürülüb. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada təsbit olunan halların demək olar ki, hamısı 1918-ci ilin mart-aprel aylarında ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilib. Bu, bir daha sözügedən hadisələrin soyqırımı olduğunu göstərir.

Ümummilli lider Heydər Əliyev 1998-ci il martın 26-da 31 mart tarixinin Azərbaycanlıların Soyqırımı Günü elan edilməsi barədə Fərman imzalayaraq 80 il öncə baş vermiş dəhşətli hadisəyə siyasi qiymət verib. Bu qanlı hadisələrdən 74 il sonra 1992-ci ildə Xocalıda törədilən soyqırımı ermənilərin iç üzünü bir daha dünyaya göstərmiş oldu. Biz Azərbaycan QHT-ləri olaraq beynəlxalq ictimaiyyəti gec də olsa, 1918-ci ildə Cənubi Qafqazda ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı hadisəsinə siyasi qiymət verməyə və Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını azad etməsi üçün sərt sanksiyalar qəbul etməyə çağırırıq".

# Rafael Hüseynov: "Avropada mətbuatı təsiri altında saxlayan iqtisadi güclər siyasi senzuradan daha təhlükəlidir"



***AŞPA-nın yaz sessiyası çərçivəsində "Redaktor müstəqilliyinin müdafiəsi" və "Avropada jurnalistlərin statusu" adlı iki məruzə dinlənilərək müzakirə edilib.***

Müzakirələrə qatılan Azərbaycan nümayəndə heyətinin üzvü Rafael Hüseynov əvvəlcə son onilliklərdə dünyanın siyasi mənzərəsində baş verən dəyişikliklərin birbaşa jurnalistikaya təsirinin də məntiqli olduğunu qeyd edib. Bildirib ki, jurnalistika daim dəyişən, inkişaf edən, vaxta uyğunlaşan sənətdir. Ancaq dövründən asılı olmayaraq jurnalistin və jurnalistikanın iki cəhəti dəyişməz qalır. Birinci, keyfiyyətli jurnalistikanın mahiyyətindəki nəciblik. Yəni, jurnalistika hər zaman insanları məlumatlandırmaq, onların gözünü açmaq, biliyini artırmaq kimi xeyirxah vəzifə daşıyır. İkinci, jurnalistikanın dövründən asılı olmayaraq həmişə riskli, müəyyən qədər də təhlükəli peşə olması, yəni, jurnalistin həmişə bir qədər fövqəladə vəziyyətdə çalışan xilasediciyə oxşaması.

Dünyanın həyatındakı ciddi dəyişikliklər əks-sədasını, ilk növbədə, jurnalistikada tapdığı kimi, bu dəyişikliklərin əsas təsirlərindən biri də elə jurnalistikaya olub. İnformasiyanın hərəkət məkanı həddən çox böyüyüb, informasiyanı almaq və ötürmək imkanı və sürətləri dəyişib. İfadə azadlığı anlayışının özündə prinsipial dəyişiklik yaranıb. Bu dəyişiklik, ilk növbədə, özünü ifadə azadlığı və ifadə sərbəstliyinin fərqində göstərir.

Sosial şəbəkələrdən istifadə azadlığından sui-istifadə nəticəsində arzuolunmaz halların da meydana çıxdığını vurğulayan R.Hüseynov deyib: "Sosial şəbəkə az qala hər kəsə sərbəst jurnalistə, bloggerə çevrilmək imkanı verir. İstədiyini yaz, istədiyin süjeti çək, hazırla və sosial şəbəkələrdə yerləşdir. Saniyələr sonra sənin informasiyan bütün dünyada yayıla bilər. Lakin sənin bu sərbəstliyin hansı peşəkar səviyyədə icra olunur, başqalarının hüquq və azadlıqlarına nə dərəcədə riayət edir, bu, artıq mübahisəlidir. Bu baxımdan jurnalistin, jurnalist işini yerinə yetirən şəxsin və ya jurnalistika pərdəsi arxasında gizlənən pozucunun fəaliyyətində ifadə azadlığı ilə ifadə sərbəstliyinin qətiyyən eyni şey olmadığı aşkarlanır. Çünki məhz bu cür sərbəstliyin, nəzarətsizliyin bəzən ifadə özbaşınalığına çevrilməsinin, söyüş, təhqir, təhdid jurnalistikasının da ayaq açmasının, mətbuat terrorunun yaranmasına gətirib çıxarmasının şahidi olmuşuq.

Dünən jurnalistikanın ifadə azadlığı baxımından ən birinci qorxusu siyasi təzyiqlər idisə, indi iqtisadi mexanizmlər daha artıq təzyiq vasitəsinə çevrilib. Çox zaman mətbuat siyasətini yerinə görə iri oliqarxlardan başlamış nəhəng maliyyə resurslarına malik olan iri şirkətlər, konsernlər, iqtisadi güclər müəyyən edir. Onlar mətbuatı da birbaşa yönəltmək bacarıqlarını ortaya qoyurlar. Bir ölkənin ən nüfuzlu, dünyada təsdiqlənmiş informasiya agentliyinə, qəzetinə, jurnalına digər xarici ölkədəki iqtisadi güc göstəriş verir, tapşırıq da yerinə yetirilir".

Deputat Rafael Hüseynov dünyanın bir sıra aparıcı mətbuat orqanları və informasiya agentliklərinin bu yolla ayrı-ayrı ölkələrə siyasi təzyiq mexanizminə çevrilməsinin təhlükəli meyil olmasını diqqətə çatdırıb. Bildirib ki, ən narahatedici cəhət dünyanın ən təcrübəli, ən tanınmış və mötəbər informasiya agentlikləri, nəşrlərinin bu yolla rahat yönləndirilə bilməsinin adiləşməsidir. İstənilən anda istənilən ölkəyə, şəxsiyyətə, siyasi liderə və xəttə qarşı geniş əhatəli kompaniyalar başladılır, məqalələr dərc edilir, reportajlar hazırlanır və bu hal nəticə etibarı ilə jurnalistikanın anatomiyasında dəyişikliyə bais olur. Jurnalistika tədricən həqiqətə xidmət edən qüvvədən məqsədlərə xidmət edən qüvvəyə çevrilir, daha doğrusu, çevrilib.

"Mən mətbuata hələ məktəbli olarkən gəlmişəm və artıq fasiləsiz olaraq onillərdir ki, jurnalistikadayam. Sovet dövrünün siyasi senzurasını və o senzuradan da betər mühafizəkar redaktorluq sistemini də görmüşəm, neçə illər "Azadlıq" radiosunun müxbiri, "Amerikanın səsi" radiosunun xüsusi müxbiri işləmişəm. Yəni, keçmişlə bu günü həm lokal, həm beynəlxalq səviyyədə ən azı öz şəxsi təcrübəm əsasında müqayisə etmək imkanım var. Keçmişə nisbətən jurnalist sözünün meydanı indi həddən artıq genişdir. Lakin keçmişdə maneəmiz yalnız siyasi senzura idi və onu da üstüörtülü yazmaqla müəyyən qədər aşmaq da olurdu. İndi senzura vəzifəsini yerinə yetirən aşkar və örtülü maneələr ağla gələ biləcəkdən də çoxdur", - deyə R.Hüseynov qeyd edib.

# "Ənənəvi mediada və sosial şəbəkələrdə dözümsüzlüyün və zorakılığın təbliği yolverilməzdir"



Azərbaycan həm daxili, həm də xarici siyasətin mühüm istiqaməti kimi multikulturalizm siyasətini həyata keçirir. Bu siyasət fərqli millətlərin və konfessiyaların nümayəndələrinə münasibətdə etik normalara və qaydalara riayət olunmasına əsaslanır, ənənəvi mediada və sosial şəbəkələrdə dözümsüzlüyün və zorakılığın təbliğatının istənilən təzahürünə qarşı çıxır.

AZƏRTAC xəbər verir ki, bu fikri AŞPA-dakı nümayəndə heyətimizin üzvü Sevinc Fətəliyeva qurumun yaz sessiyasında birgə debatlar zamanı çıxışında söyləyib. O deyib: "Azərbaycanda media nümayəndələri hər gün heç bir maneə ilə rastlaşmadan dövlət və qeyri-dövlət orqanlarının fəaliyyətini araşdırır, əgər əsasları varsa tənqid də edirlər. Tənqid adı altında qara yaxmaq, təhqir, şantaj etmək isə qəbuledilməzdir. Jurnalistika fəaliyyəti heç kimə müstəsna hüquqlar və digər vətəndaşlarla müqayisədə üstün səlahiyyətlər vermir. Jurnalistika fəaliyyəti ilə məşğul olan hər kəs yaşadığı və fəaliyyət göstərdiyi ölkənin qanunlarına riayət etməyə borcludur".

Sevinc Fətəliyeva qeyd edib ki, müasir dövrdə sosial şəbəkə erasında jurnalistika anlayışı dəyişib. Hər bir şəxs mütəmadi olaraq informasiya yayırsa, proseslərlə bağlı öz baxışlarını, mövqeyini nümayiş etdirirsə özünü jurnalist adlandıra bilir. Bizi narahat edən məsələ jurnalistikada peşəkarlığın olmamasıdır.

Deputat bildirib ki, müzakirə olunan mövzu kontekstində universal meyar və prinsipləri özündə əks etdirən jurnalist kodeksini xatırlamaq yerinə düşər. Tam sərbəstlik şəraitində mediadan şəxsi məqsədlər üçün istifadə etmək cəhdlərinin artması ictimaiyyətin diqqətini jurnalist fəaliyyətinin mənəvi aspektlərinə cəlb edir. Müxtəlif növ və səviyyələrdə olan bir çox nəşrlər polemika mədəniyyətinin aşağı səviyyədə olması, opponentlərin fikirlərinin təhrif edilməsi, fərqli baxışlara münasibətdə düşmənçilik göstərməsi ilə seçilir.

Söz və ifadə azadlığı jurnalistin fəaliyyətinin ayrılmaz bir hissəsidir. Cəmiyyətin deyil, hakimiyyətin və ya təsisçinin maraqlarına xidmət etmək jurnalist etikasının pozulması deməkdir. Jurnalist insanın şəxsi həyatına hörmətlə yanaşmalıdır. Jurnalist kodeksinə toxunan millət vəkili 1983-cü ildə beynəlxalq və regional jurnalist qurumlarının qəbul etdiyi "Jurnalist etikasının beynəlxalq prinsipləri" adlı sənədi xatırladıb. Bildirib ki, həmin prinsiplər media işçilərinin xəbərləri həqiqətə uyğun və dürüst şəkildə yaymasını və insanların öz fikirlərini sərbəst şəkildə ifadə etmək və məlumatları sərbəst şəkildə almaq hüququnu təmin etmələrini tələb edir. Dünya jurnalist ictimaiyyəti tərəfindən hazırlanmış peşəkar və etik standartlar obyektiv qərarlar qəbul etməyə, azad yaradıcılıq məkanının sərhədlərini müəyyənləşdirməyə kömək edir.

# İtaliyalı senator: Azərbaycanda seçkilərin nəticələri ölkənin iqtisadi inkişafının bəhrəsidir



Azərbaycanda prezident seçkiləri yüksək səviyyədə keçdi, səsvermənin nəticələri xalqın iradəsini əks etdirdi. Bu cür yüksək nəticə əldə etmək ölkənin iqtisadi inkişafının bəhrəsidir. Bu fikri italiyalı senator Sercio Divina AZƏRTAC-a açıqlamasında bildirib. Qafqazın riskli region olduğunu deyən italiyalı parlamentari ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini dəstəklədiyini vurğulayıb. Bildirib ki, münaqişə BMT TŞ-nin məlum 4 qətnaməsi çərçivəsində diplomatik yolla həll edilməlidir.

## Pakistanın federal müvəkkili Azərbaycanda insan hüquqları sahəsində görülən işlər barədə məlumatlandırılıb



Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin qadınların təcavüz hallarından müdafiəsi üzrə yeni təyin olunmuş federal müvəkkili Kaşmala Tariq ilə görüşüb. Səfir Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin fəaliyyəti, insan hüquqları sahəsində görülən maarifləndirmə işləri, Azərbaycanda insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində aparılan islahatlar, qəbul olunmuş və həyata keçirilən dövlət proqramları haqqında məlumat verib. Azərbaycan ərazisinin 20 faizinin təcavüzkar Ermənistan tərəfindən işğal olunması nəticəsində 1 milyondan artıq qaçqın və məcburi köçkünün hüquqlarının pozulduğunu, lakin özlərini insan hüquqları sahəsində qabaqcıl hesab edən bir çox aparıcı xarici təşkilatların və dövlətlərin bu cür hallara laqeyd yanaşdığını, qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqlarının bərpası və təmininin vacib amil olduğunu bildirən səfir Pakistanın Azərbaycanın ədalətli mövqeyini daim dəstəklədiyini söyləyib və buna görə müvəkkilə təşəkkür edib.

Kaşmala Tariq qadınların hüquq və azadlıqlarının təmin olunması sahəsində Pakistanda həyata keçirilən işlər haqqında məlumat verərək, ədalətsiz münaqişələr nəticəsində kütləvi əziyyət çəkən insanların hüquqlarının bərpasının daha vacib olduğunu və ikili yanaşmalar nəticəsində bunun uzun zaman çəkməsinin təəssüfverici olduğunu qeyd edib. Müvəkkil Azərbaycanın inkişafı ilə bağlı əldə etdiyi məlumatlardan məmnun qaldığını, Azərbaycan Respublikasının Ombudsman təsisatı, eləcə də Azərbaycan səfirliyi ilə sıx işləməkdə maraqlı olduğunu və fəaliyyəti dövründə əlaqələrin daha da genişlənməsində səylərin artırılacağını vurğulayıb.

# Azərbaycandan Rusiya istiqamətində dövlət sərhədini pozmağa cəhd edən şəxs saxlanılıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirləri uğurla davam etdirilir.



Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, aprelin 24-də DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində bir nəfər xarici vətəndaş tərəfindən dövlət sərhədinin pozulmasının qarşısı alınıb. Dövlət sərhədinin pozulması halı Xudat sərhəd dəstəsinin xidməti ərazisində baş verib. Qusar rayonunun Şirvanovka kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində Azərbaycan Respublikasından Rusiya Federasiyası istiqamətində dövlət sərhədini pozmağa hazırlaşan naməlum şəxs sərhəd naryadı tərəfindən aşkarlanıb və hərəkətləri nəzarətdə saxlanılıb.

Sərhəd pozucusu sərhəd zastavasının mühəndis-texniki çəpərinin məftillərinin arasından keçərək sərhədboyu zolağa daxil olduqdan sonra sərhəd naryadı tərəfindən saxlanılıb. Sərhəd pozucusunun şəxsiyyəti dəqiqləşdirilib, onun 1991-ci il təvəllüdlü Özbəkistan vətəndaşı Tukhtasinov Tolibjon Rahmanjon oğlu olması müəyyən edilib. Fakt üzrə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Xaçmazda Zərifə xanım Əliyevanın 95 illik yubileyinə həsr olunmuş elmi-nəzəri konfrans keçirilib



YAP Xaçmaz rayon təşkilatı Mərkəzi rayon Xəstəxanasının ərazi ilk partiya təşkilatı ilə birgə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 95 illik yubileyinə həsr olunmuş elmi-nəzəri konfrans keçirib.

Konfransı giriş sözü ilə açan YAP Xaçmaz rayon təşkilatının sədr müavini Sevinc Sədullayeva görkəmli alim, ictimai xadim, akademik Zərifə xanım Əliyevanın həyat və fəaliyyəti haqqında məlumat verərək, Onun həkim olaraq, insanlara qarşı sonsuz qayğısının tükənməz olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb. O, akademik Zərifə xanım Əliyevanın hər kəsə örnək olan ana, alim və gözəl qadın olmaqla yanaşı, həm də Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin Memarı və Qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı və etibarlı silahdaşı olduğunu vurğulayıb. S.Sədullayeva onu da qeyd edib ki, Zərifə xanım Əliyeva Azərbaycana dövlətçiliyin keşiyində duran, ölkənin nüfuzunu daha da yüksəldən, onu dünya dövlətləri arasında söz sahibinə çevirən Cənab İlham Əliyev kimi siyasi Lider bəxş etmişdir: "Bunun təsdiqidir ki, aprel ayının 11-də ölkəmizdə keçirilən prezident seçkilərində Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyev və Zərifə xanım Əliyeva ocağından bəhrələnərək, Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Cənab İlham Əliyevi böyük səs çoxluğu ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçdilər".



Konfransda həkimlərdən Nuranə Azaqova "Gözəl alim, qayğıkeş insan", Zəkiyyə Əhmədova "Görkəmli alim, xeyirxah insan" mövzularında geniş məruzə ediblər. Mərkəzi rayon xəstəxananın şöbə müdiri Əmir Əsədov akademik Zərifə xanım Əliyeva ilə şəxsi görüşünün xatirələrini konfrans iştirakçıları ilə bölüşüb. Mərkəzi Xaçmaz rayon xəstəxanasının ilk partiya təşkilatının sədri, rayon təşkilatının idarə heyətinin üzvü Səyyaf Tağıyev çıxışında Zərifə xanımın elmi və ictimai fəaliyyəti haqqında məlumat verərək, Onun işıqlı obrazının yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə qalacağını və qədirbilən xalqımızın qəlbində əbədi yaşayacağını bildirib.

**Nəzakət ƏLƏDDİNQIZI**



# Suraxanı rayonunda "Mənəviyyat tariximizin örnəyi" adlı tədbir keçirilib

*Tədbir görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95 illik yubileyinə həsr olunub*

***Dünən Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatı görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95 illik yubileyinə həsr edilmiş "Mənəviyyat tariximizin örnəyi" adlı tədbir keçirilib. Tədbirdə Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyevanın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, sonra Zərifə xanım Əliyevanın həyatından bəhs edən video-çarx nümayiş etdirilib.***

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın adının Azərbaycanda böyük fəxrlə, sonsuz qürur hissi ilə səsləndiyini, ölkəmizdə ana adının ucalığı, ömür-gün yoldaşının sədaqəti, nurlu həkimliyin müqəddəsliyi Onun adı ilə əbədiləşdiyini söyləyib. V.Seyidov, Zərifə xanımın tibb elminin zirvəsində parlayan əbədiyyət günəşi olduğunu, yaşadığı ömür kitabını vərəqlədikcə bitib-tükənmədiyini, xeyirxah əməllərinin daim xatırlandığını, Onun həyat yolunun gələcək nəsillərə örnək, nümunə olduğunu qeyd edib.

V.Seyidov Zərifə xanım Əliyevanın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı ömrünün, keçdiyi şərəfli həyat yolunun hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbi, Onun zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsi olduğunu vurğulayıb.

Tədbirdə, millət vəkili Ağacan Abıyev, tibb elmləri doktoru, professor, şair Paşa Qəlbinur, YAP Suraxanı rayon təşkilatı qadınlar şurasının sədri Zəkiyyə Musayeva, 12 saylı Birləşmiş şəhər Xəstəxanasının həkimi Bəhlul Məmmədov, 8 saylı Birləşmiş Uşaq Xəstəxanasının həkimi Mehriban Hüseynova çıxış edərək, Zərifə xanım Əliyevanın keçdiyi həyat yolundan fəxrlə danışıblar. Bildirilib ki, akademik Zərifə xanım Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Onun elmi fəaliyyəti çox zəngin və əhatəli olmuşdur. Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü vətəninin və xalqının tərəqqisinə həsr etmiş Dahi Şəxsiyyətin - Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Zərifə xanım Ümummilli Liderimiz Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin anasıdır. Qeyd olunub ki, akademik Zərifə xanım Əliyevanın əziz xatirəsi xalqımızın qəlbində, ölkəmizin tibbi salnaməsində dünya şöhrətli alim, nümunəvi qayğıkeş pedaqoq, şəfaverici şəfqətli həkim, səmimi və sədaqətli bir vətəndaş kimi, eləcə də məğrur Azərbaycan qadını, nur çöhrəli Azərbaycan anası kimi daim yaşayacaqdır.

**ZÜMRÜD**

# Bakıda İnsan Resursları forumu keçiriləcək



Bakıda mayın 4-də Azərbaycan Banklar Assosiasiyası (ABA) və Azərbaycan İnsan Resursları Cəmiyyətinin (HR Society) birgə təşkilatçılığı, Azərbaycan Beynəlxalq Bankının baş sponsorluğu ilə "Human Capital Forum - 2018" keçiriləcək.

Assosiasiyadan AZƏRTAC-a bildiriblər ki, forumun təşkilində məqsəd insan resursları sahəsində çalışan mütəxəssisləri bir araya gətirmək, onların peşəkar inkişafına dəstək vermək, təcrübə mübadiləsi aparmaq, HR sahəsində baş verən yeniliklərlə tanışlıq, onların Azərbaycanda da tətbiqi imkanlarını birgə dəyərləndirmək və bu istiqamətdə müştərək fəaliyyət üçün motivasiya yaratmaqdır. Tədbirdə maliyyə qurumlarının HR menecerləri, Azərbaycan İnsan Resursları Cəmiyyətinin üzvləri, insan resurslarının idarə olunması sahəsində fəaliyyət göstərən tədqiqatçılar, təlimçilər və məsləhətçilər iştirak edəcəklər. Forum 2 paneldən ibarət olacaq. Burada yerli və xarici spikerlər 10 mövzu üzrə öz təcrübələrini bölüşəcəklər. Digital HR, insan kapitalının formalaşdırılmasında HR menecerlərinin rolu, bu sahədə qiymətləndirmə alətləri, işçi məmnunluğunun əsas amilləri, rəhbər-işçi münasibətlərinin səmərəliliyi, insanların davranış və ünsiyyət tərzlərinin qiymətləndirilməsində dördölçülü davranış modelinin (DİSC) yaratdığı imkanlar, insan resurslarının idarə olunması sahəsində beynəlxalq trendlər və s. müzakirə ediləcək mövzulara daxildir. Forumda təqdimatlarla yanaşı, könüllülərin iştirakı ilə praktik sınaqlar da nümayiş etdiriləcək.

# May ayında Bakıda "QAZ" firma diler mərkəzi açılacaq




Bu ilin may ayında Rusiyanın "Qruppa QAZ" avtomobilqayırma şirkəti "Azərmaş" ASC-nin törəmə müəssisəsi olan "Azevrokar" şirkəti ilə birlikdə Bakıda "QAZ" firma diler mərkəzi açılmasını planlaşdırır.

AZƏRTAC şirkətə istinadla xəbər verir ki, "Azərmaş" ASC və Qorki avtomobil zavodu "QAZ kommersiya avtomobillərinin Azərbaycanda yığılmasının inkişaf etdirilməsi sahəsində əməkdaşlıq haqqında" memorandum imzalayıblar. Həmin sənədə əsasən, 2019-cu ilin sonuna qədər Hacıqabul şəhərində "QAZelğ NEXT", "QAZelğ BİZNE" kommersiya avtomobillərinin və "QAZon NEXT" yük avtomobillərinin yığma istehsalatı yaradılacaq. Müəssisə hər il 1000-ə qədər avtomobil istehsal etməyə imkan verəcək.

# Bakıda "Şimal-Cənub" elektrik enerjisi dəhlizinin yaradılması üzrə görüş keçiriləcək

Bakıda Rusiya-Azərbaycan-İran "Şimal-Cənub" elektrik enerjisi dəhlizinin yaradılmasına dair görüş keçiriləcək. Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, aprelin 26-da nazirlikdə Rusiya-Azərbaycan-İran "Şimal-Cənub" elektrik enerjisi dəhlizinin yaradılması üzrə üçtərəfli görüş keçiriləcək.

# Serjik ölkədən qaçmağa hazırlaşır

*Yaxud Ermənistandakı mövcud ağır vəziyyətin kökündə təcridolunma amili də dayanır*









***Cəmi, bir həftə öncə Ermənistanda güc üstünlüyü qurama siyasi oyunları ilə özünü baş nazir seçdirmiş Serj Sarkisyanda idi. Lakin onun bu vəzifədə qalması Nikol Paşinyanın liderlik etdiyi hərəkat sayəsində laxladı və çökdü. İndi, güc məhz müxalifətdədir ki, kütləvi xalq etirazı bu gücün özəyini təşkil edir. Lakin, ilk baxışdan onu da deyə bilərik ki, Ermənistanda çərçivədən çıxan mövcud siyasi vəziyyət bu ölkənin bir sıra məsələlərdə təcrid olunmasının təsdiqi idi. Daha dəqiq desək, bu gün Ermənistanın siyasi-iqtidsadi tənəzzülə uğraması bilavasitə Azərbaycanın gücü ilə əlaqələndirilə bilər. Uzun illərdir ki, aparılan işğalçılıq siyasətinin məntiqi nəticəsi də bu cür olmalı idi və oldu da.***

**Onun ölkədən qaçmaması üçün də tədbirlərin görüldüyü deyilir**

Yeri gəlmişkən, zaman-zaman xaricdəki erməni diasporunun dəstəyi ilə hakimiyyətini əlində saxlayan Serj Sarkisyan bu dəfə aldığı zərbəsini bilavasitə diaspora tərəfindən də qazandı. Çünki diaspora bu dəfə məhz müxalifəti dəstəklədi. Əbəs deyil ki, hadisələrin nüvəsi paytaxt Yerevan idisə, sonradan bölgələri də əhatə edən etiraz dalğaları bilavasitə diasporanın maliyyə dəstəyi ilə mümkün oldu. Bu baxımdan, deyə bilərik ki, Sarkisyanın son ümidi də əlindən verilmiş oldu.

Artıq belə bir söz-söhbətlər gəzməkdədir ki, Serj Sarkisyan gizlənir və ola bilsin ki, ölkədən qaçmaq planını düşünür. Ancaq onun ölkədən qaçmaması üçün də tədbirlərin görüldüyü deyilir. Belə ki, N.Paşinyan S.Sarkisyanın bu vaxta qədər erməni xalqının və ölkəsinin başına gətirdiyi oyunlara görə cavab verəcəyini bəyan edib. Hətta müəyyən siyasi məsələlər yoluna qoyulduqdan sonra, məhkəmənin keçiriləcəyini də bildirən Paşinyan Sarkisyan da daxil olmaqla, onunla bir olan digər şəxslərin də qanun qarşısında cavab veriləcəyi istisna edilmir.

Beləliklə, fakt budur ki, Ermənistanda mövcud ağır vəziyyət davam edəcək və çalxalanmaların da başa çatacağını demək olmaz. Çünki hazırkı hakimiyyət bir sıra rıçaqları əlində saxlamaq üçün Paşinyanla dialoqa gediləcəyini bəyan edir. Ancaq Paşinyan Sarkisyanın istefaya getməmişdən qabaq apardığı danışıqda dialoq etmədiyini və yalnız istefa qərarını qəbul edəcəyini bildirmişdi. Bu baxımdan, dialoq mümkünlüyü görünmür. Belə olan halda, qarşıda Ermənistanı daha kəskin qarşıdurmalar gözləyir.

**Rövşən RƏSULOV**

# "İstefa qaçılmaz idi"

*Azər Həsrət: "Çünki Sarkisyan Ermənistanda hakimiyyətə qan üstündə gəlmişdi"*



Müsahibimiz siyasi şərhçi Azər Həsrətdir

***- Azər müəllim, Ermənistanda keçirilən kütləvi mitinqlər nəticə etibarı ilə Sarkisyanın baş nazirlikdən istefa verməsi ilə nəticələndi. Bununla bağlı nə deyə bilərsiniz?***

- Bu istefa qaçılmaz idi. Çünki Sarkisyan Ermənistanda hakimiyyətə qan üstündə gəlmişdi. Hələ 2008-ci ildə prezident seçiləndə saxta seçkiyə etiraz edən xalqın üzərinə silahlı dəstələr göndərmiş və 10 nəfərin ölümünə səbəb olmuşdu. Ermənilər hələ o vaxtdan bu adamdan narazı idilər. Amma onun yalan vədləri, tez-tez Qarabağda atəşkəsi pozaraq, xalqın başını qatması hakimiyyətdə qalmasına yardımçı oldu. Lakin xalq bu şəxsin öz hakimiyyətini uzatmaq üçün baş nazirlik avantürasına dözə bilmədi. Ona görə ki, Sarkisyan qaldıqca ermənilərin ümidləri, sabaha inamı suallar doğururdu. Belə bir şəraitdə onun baş nazir kimi qalması imkansız idi.

***- İddialara görə 3 aydan sonra yeni parlament seçkiləri keçiriləcək və Sarkisyan yenidən baş nazir olacaq. Sarkisyan belə bir hiyləgər plan həyata keçirib, reallaşdıra biləcəkmi?***

- Hər cür iddia ola bilər. Amma Sarkisyanın hakimiyyəti artıq birdəfəlik bitmişdir. Seçki olsa belə, onun təkrar iddia ilə çıxış etməsi mümkün deyil. Bir dəfə burnu ovuldu, onun özü də belə iddia irəli sürən deyil.

***- Hər zaman belə bir fikir səslənirdi ki, Sarkisyan Rusiyanın adamıdır. Əgər Sarkisyan Rusiyanın adamıdırsa, niyə Rusiya onu qoruya bilmədi?***

- Rusiyanın onu qoruması belə imkansız hala gəlmişdi. Əgər Rusiya zor gücünə Sarkisyanı baş nazir vəzifəsində saxlasaydı, ermənilərlə münasibətləri ciddi şəkildə pozulardı. Bu isə o deməkdir ki, Rusiya erməni ictimai rəyinin dəstəyini itirəcəkdi. Belə bir durum da Qərbin xeyrinə olacaqdı. Yəni Rusiya bu hadisələrdə öz oyunçusunu qurban verdi ki, sonrakı mərhələdə lazım olacaq imkanlarını birdəfəlik itirməsin.

***- Sizcə bundan sonra Ermənistanda konstruktiv mövqeli şəxs hakimiyyətə gələrsə, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq mümkündürmü?***

- Ermənistanda hakimiyyətə kimin gəlməsindən asılı olmayaraq münaqişə yalnız Azərbaycanın diktə edəcəyi şərtlər altında həllinə edilə bilər. Yəni bizim dövlətimiz güc faktorundan çıxış edərək, münaqişənin ədalətli həllinə nail ola bilər. Bunun üçün Ermənistanın arxasındakı güclərlə ortaq dil tapmaq lazımdır. Bütün dünya bilir ki, Dağlıq Qarabağ məsələsində söz sahibi heç də işğalçı Ermənistan deyil, onun arxasında dayanan güclərdir.

**GÜLYANƏ**

# *Metroda cibgirlik edən keçmiş məhkum tutulub*

İctimai nəqliyyatda cibgirlik edən şəxs polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bakı Metropolitenində polis şöbəsinə müraciət edən paytaxt sakini G.Bədəlova "Gənclik" stansiyasının platformasında çantasından mobil telefonunun oğurlandığını bildirib.



Dərhal əməliyyat-axtarış tədbirlərinə başlayan polis əməkdaşları cinayəti törətməkdə şübhəli bilinən şəxsi qısa zamanda müəyyən edərək saxlayıblar. Araşdırmalarla onun paytaxt sakini, əvvəllər məhkum edilmiş Vüqar Əliyev olduğu müəyyənləşdirilib. Onun, həmçinin aprelin 22-də metronun "İçərişəhər" stansiyasının platformasında Ağdam rayon sakini İ.Məhəmmədlinin cibindən də mobil telefon oğurladığı müəyyən edilib. Mobil telefonlar maddi sübut kimi polis əməkdaşları tərəfindən götürülüb. Faktla bağlı araşdırma aparılır.

# *Külli miqdarda narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb*

Respublikanın daxili işlər orqanları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri qətiyyətlə davam etdirilir. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu istiqamətdə aprelin 24-də keçirilən tədbirlər nəticəsində külli miqdarda narkotik vasitə götürülərək qanunsuz dövriyyədən çıxarılıb.



Belə ki, Göyçay Rayon Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumatı əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılan şəhər sakini Əlixan Məmmədovdan şəxsi axtarış zamanı marixuana aşkarlanıb. Davam etdirilən tədbirlərlə onun yaşadığı evin həyətindəki qarajda gizlətdiyi 485 qram marixuana da aşkar edilərək götürülüb.

Masallı Rayon Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumatı əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş Valeh Tağıyevin həyətyanı sahəsindən kultivasiya yolu ilə yetişdirilmiş 9 ədəd çətənə kolu, yaşadığı evdən isə gizlətdiyi çəkisi 435 qram marixuana aşkarlanıb. Saxlanılan şəxslər götürülmüş maddi sübutlarla birgə istintaqa təhvil veriliblər. Faktlarla bağlı cinayət işləri başlanılıb.

# Radikal müxalifətin anti-təbliğatı əbəsdir və ümid etdikləri utopiyadır

***Dünyanın geopolitik mənzərəsi dəyişəndə, adətən, avantüristlər bundan öz mənafeləri üçün istifadə etməyə cəhd edir və öz maraqlarına uyğun şəkildə yanaşma sərgiləyirlər. Xüsusən, müxalifətin qarışıqlıqlardan istifadə etmək marağı daha çox hiss olunur. Daha dəqiq desək, baş verən hadisələrə öz maraqları çərçivəsində don geyindirənlərin mövqeyi tam çılpaqlığı ilə ortaya çıxır və niyyətləri açıq şəkildə bəlli olur.***



Ermənistanda baş verən hadisələri, daha dəqiq desək, ermənilərin küçə və meydanlara çıxaraq istefa tələbi irəli sürməsini, hətta ölkəni 20 ildən çox müddətdə tamamilə səfalətə sürükləyən, acınacaqlı bir duruma salan, marginallaşdıran, erməniləri əməllərinə girov edən bir terroristin-Serj Sarkisyanın baş nazir postundan istefası fonunda buna nail olmasını Azərbaycanın bəzi radikal ünsürləri nümunə kimi təqdim etmək qərarına gəlib. Sarkisyan kimi qaniçən caninin, Xocalı kimi insanlıq dramı törədicisinin, özünü baş nazir elan edərək diktatura yaratmış uşaq qatilinin, bütün dünya ictimaiyyətinə hiyləgərliyi ilə tanınan bir avantüristin kimliyini unudanlar Ermənistanda baş verən etiraz dalğasından da istifadə edərək, ictimai fikirdə çaşqınlıq yaratmağa cəhd edirlər.

Sosial şəbəkələri siyasi mübarizə meydanı olaraq, seçən dırnaqarası müxalifət liderləri Ermənistanda baş verən hadisələrdən sonra virtual məkanda daha da fəallaşmağa başlayıb. Hadisələrdən yararlanmaq, istifadə etmək şakərinə, ənənəsinə sadiq qalan dağıdıcı müxalifət indi də işğalçı rejimə qarşı erməni xalqının etirazından da bəhrələnmək niyyətindədir. Məqsədləri qarmaqarışıqlıq törətmək, xaos yaratmaq olan bir qrup müxalifətçinin virtual şəbəkələrdə dırnaqarası aktivliyi ictimaiyyətin diqqətindən kənarda deyil və haqlı olaraq narazılıqla qarşılanır.

### Uyğunsuz fikirlər, yersiz çağırışlar etməklə, çaşqınlıq yaradacaqlarını düşünən dağıdıcı müxalifət bərk yanılır

Dağıdıcı müxalifət ünsürləri elə hesab edirlərsə ki, virtual məkanda cəngavərlik etməklə, sosial şəbəkələrdə gecə-gündüz ağlasığmaz şərhlər, uyğunsuz fikirlər, yersiz çağırışlar etməklə çaşqınlıq yaradacaqlar, bərk yanılırlar. Azərbaycan xalqını Ermənistanda baş verən etiraz dalğası ilə yoldan çıxarmaq qərarına düşən müxalifət başbilənləri unudurlar ki, xalqımız nə güzəranından narazıdır, nə də dövlət siyasətinin əleyhinədir. Azərbaycan Prezidentini, Onun fəaliyyətini dəstəkləyən xalqımızın ölkə rəhbərindən zərrə qədər narazılığı yoxdur. Əksinə, hər zaman xalqını, onun mənafeyini düşünən, milli maraqları üstün tutan, dövlətçilik ideyalarına sadiq qalan, vətənini sevərək mənafeyini qoruyan Prezident İlham Əliyevlə xalqın birliyi möhkəm əsaslara söykənir.

Seçkilərdə göstərilən etimad ölkə Prezidenti ilə bu xalqın birliyinin bariz nümunəsidir. Dəfələrlə öz Prezidentinə etimad göstərən Azərbaycan xalqı əbəs yerə deyil ki, bu dəfə də Cənab İlham Əliyevi ölkə başçısı olmağa layiq bildi. Bütün bunlar xalqın öz rəhbərinə olan sevgisinin, inamının, verdiyi dəyərin təzahürüdür. Bütün dünya ictimaiyyəti də şahid oldu ki, həmişə olduğu kimi, yenə də Azərbaycan xalqı öz rəhbərinə etimad göstərir, məqsədyönlü, uğurlu siyasətinə inanır. Bir daha təsdiq olundu ki, xalq-iqtidar sevgisi sarsılmazdır və bu birliyi qırmaq mümkün deyil.

### Müxalifətin dırnaqarası fəalları işğalçı ölkədə baş verənlərdən ruhlanıb

Virtual müstəvidə fəaliyyət göstərməkdən başqa heç bir potensialı olmayan müxalifətin dırnaqarası fəalları öz tərbiyəsizliklərini nümayiş etdirən ifadələrlə, özlərinə şamil olunacaq qeyri-etik davranışlarla, yalnız özlərinə yaraşan karikaturalarla diqqəti yayındırmaq, çaşqınlıq yaratmaq istəyirlər. Ermənistanı Azərbaycanla paralel şəkildə müqayisə etməyə çalışaraq, işğalçı ölkədə baş verən hadisələrin ölkəmizdə olmasını arzuladıqlarını da gizlətmirlər. Bəlli olur ki, Azərbaycanda çaxnaşma, qarışıqlıq yaratmaq istəyən bəzi qüvvələr Ermənistanda baş verən hadisələrdən presedent kimi istifadə etməyə can atırlar. Bu qüvvələr özləri belə çirkin niyyətlərinin, əməllərinin müqabilində heç nəyə ümid etmirlər və əgər ümid etsələr belə, ümidlərinin puç olacağına əmin olsunlar. Çünki Azərbaycanda olan mənzərə Ermənistandakı mühitdən tamamilə fərqlidir və bunun əksini iddia edənlər belə öz ifadələrində qeyri-ixtiyari olaraq təsdiq edirlər ki, Azərbaycan stabil ölkə olaraq işğalçı dövlətlə müqayisə edilə bilməz.

Qarşıdurmaların olmasını, sabitliyin pozulmasını arzulayanlar müqayisə olaraq, Ermənistanda da, Azərbaycanda da seçkilərin keçirilməsini və seçkilərdən sonrakı mənzərəni xatırlaya bilərlər. Ermənistanda əvvəla seçki yox, rəqabətsiz seçim reallaşdırıldı. Daha doğrusu, Serj özünü baş nazir kimi təsdiq etdirdi və bütün səlahiyyətləri əlinə alaraq ölkəni diktaturaya çevirib, özü də diktator kürsüsündə oturdu. Nəticədə isə, artıq bu terrorçudan, hiyləgərdən, qaniçən caninin rəhbərlik etdiyi cinayətkar rejimdən bezən xalq haqlı olaraq etiraz aksiyalarına başladı. Ən tez zamanda Sarkisyana, cinayətkar xuntaya da öz yeri göstərildi və hakimiyyətdən uzaqlaşdırıldı. Bu məntiqi sonluq idi və mövcud hadisələr bir az daha öncə də olmalı idi. Azərbaycanda isə mühit tamamilə başqa, şərait tamamilə fərqlidir. Ölkəmizdə prezident seçkisi rəqabət mühitində, demokratik şəraitdə, tam ədalətli şəkildə keçirildi və xalq öz iradəsini ifadə edərək ən layiqli namizədə etimad göstərdi. İstər seçki prosesində, istərsə də seçkinin sonunda ictimaiyyətin bayram əhval-ruhiyyəsi də diqqətdən kənarda deyildi. Azərbaycan ictimaiyyətindən tutmuş, beynəlxalq müşahidəçilərə qədər hamı bu etimadın da, bayram əhval-ruhiyyəsinin də şahidi oldu. Belə olan halda, bir neçə ağzıgöyçək müxalifət başbiləninin, dırnaqarası liderin, araqarışdıran ünsürlərin əsassız iddialarının, məntiqsiz proqnozlarının xülyadan başqa bir şey olmadığı bəlli olur və yersiz çağırışlarının zərrə qədər mahiyyəti qalmır. Hər bir dağıdıcı ünsür anlamaq və qəbul etmək məcburiyyətindədir ki, Azərbaycanda hər hansı aksiya, yaxud mitinq üçün belə sosial sifariş yoxdur. Bu baxımdan, radikalların ölkəmizin əleyhinə göstərdikləri bütün fəaliyyət, apardıqları anti-təbliğat əbəsdir və bunun nəticəsinə ümid bağlamaq utopiyadır.

***İnam HACIYEV***

# Hüseyn Abdullayev "söyüş müxalifəti"ni maliyyələşdirib

*Yaxud bütün iyrəncliklərə görə cavab verməyin vaxtıdır!*



***Xaricdəki anti-milli qüvvələrlə əməkdaşlıq edən və Azərbaycan maraqlarını açıq hərraca çıxaran bir qrup dağıdıcı ünsürün - "söyüş müxalifəti"nin bu istiqamətdəki oyunbazlıqları hələ bir müddət öncə onların fəaliyyətlərini araşdırmaq zərurətini yaratmışdı. Əslində, indi də həmin zərurət ortadadır və bu kimi xainlərin nə zamansa qanun qarşısında cavab verəcəkləri qaçılmazdır. Necə ki, onları maliyyələşdirənlərdən biri - "Quska" ləqəbli Hüseyn Abdullayev artıq məhkəmə qarşısına çıxarılır. Söz yox ki, bu şəxslərin gündəmə gəlməsi, əslində, onların məkrli qüvvələrin əlində alət olduğunu göstərir. Xüsusilə, erməni lobbisi ilə sıx əlaqədə olanlar həmin xəyanətləri qarşılığında Azərbaycan xalqının nüfuzuna ləkə vurmağa çalışıblar.***

### 72 min avroluq fakt!

Artıq həbsdə olan "Quska" ilə yanaşı, "söyüş müxalifəti"ni maliyyələşdirənlər arasında Beynəlxalq Universitetin keçmiş rektoru Elşad Abdullayev, keçmiş hərbçi İsa Sadıqov və erməni lobbisinin pulları ilə böyük sərvət toplamış keçmiş səfir Arif Məmmədov da yer alır. Onların hər biri barədə etdikləri xəyanətlərini sübuta yetirən kifayət qədər dosyelər, faktlar mövcuddur. Artıq o da kimsəyə sirr deyil ki, həmin başıpozuqların maliyyələşdirilməsində iştirak edən bu siyasətbazlar, əslində, siyasi mövcudluqlarını göstərmək üçün dağıdıcı ünsürlərdən bir alət kimi də istifadə edirlər. Emin Milli, Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rafael Piriyev, Həbib Müntəzir və digərləri bilavasitə alət rolunu alan ünsürlərdir.

Məsələn, maliyyə maqnatı rolunda çıxış edən "Quska"nın ilkin olaraq Emin Milliyə 50 min, Orduxan Teymurxana isə 22 min avro (ümumilikdə 72 min avro-R.R.) vəsait ayırdığı barədə faktlar ortadadır. Bu arada Azərbaycan dilindən yalnız söyüş söymək üçün istifadə etdiyini həyasızcasına bəyan edən və prezident seçkisi ərəfəsində ABŞ-ın NED təşkilatından qrant almış qondarma "hüquq müdafiəçisi" Leyla Yunusun da başıpozuqların maliyyə dəstəkçisi rolunda çıxış etməsi barədə məlumatlar var.

### Maskalar yırtılır

Anti-milli ünsürlərin erməni lobbisi ilə əlbirliyində Azərbaycan əleyhinə kampaniya aparmalarına xaricdəki soydaşlarımızın da mövqelərində ictimailəşmişdi. Xatırladaq ki, Çexiyanın paytaxtı Praqada yaşayan Zamiq Məmmədli Facebook səhifəsində O.Teymurxan, M.Mirzəli və digərlərinin Azərbaycana qarşı apardıqları kampaniyaya özünəməxsus tərzdə aydınlıq gətirmişdilər. Həmin fikirləri bir daha xatırlatmağa dəyər: "Bu aksiyaya (söyüş aksiyası nəzərdə tutulur-R.R.) qoşulanlardan soruşuram: Leyla Yunusdan 94 min avronun hesabını soruşmağa cəsarətiniz çatırmı? Amma 5000 km uzaqdan camaata "tırka" verməyi gözəl bacarırsınız".

Bəli, əlahəzrət faktdan yayınmaq heç vaxt mümkün olmayıb. Azərbaycan Prezidenti, dövlətimiz və xalqımız əleyhinə qarayaxma kampaniyası üçün böyük maliyyə vəsaiti ayıran bu iyrənc siyasətbazlar son bir neçə ayda faktiki olaraq anti-Azərbaycançı şəbəkənin ruporu olduqlarını öz çirkin əməlləri ilə təsdiqlədilər. Azərbaycanın düşməni olan erməni lobbisi ilə eyni cərgədə yer alan bu dağıdıcı ünsürlərin siyasi maskaları yırtıldıqca, cəmiyyət onların simasızlığını və əxlaq pozğunluqlarının bir daha şahidi olur. Məsələn, "Quska" ləqəbli Hüseyn Abdullayevin həbsi artıq onlardan birinin maskasının yırtılmasının bariz sübutudur...

***Rövşən RƏSULOV***

# Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, aprelin 25-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində keçirilən monitorinq insidentsiz başa çatıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçiriblər. Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Oqnyen Yoviç, Mixail Olaru və Saymon Tiller aparıblar.

# İndoneziyadakı neft quyusunda yanğın olub, azı 10 nəfər ölüb

İndoneziyanın Sumatra adasının şimalında yerləşən Açe vilayətində qanunsuz işlədilən neft quyusunda baş verən yanğın nəticəsində azı 10 nəfər həlak olub, onlarla insan yaralanıb. Güclü yanıq xəsarətləri alan yaralılar ətrafdakı xəstəxanalara yerləşdirilib. AZƏRTAC Türkiyə KİV-lərinə istinadla xəbər verir ki, yerli polisin məlumatına görə, yanğının səbəbi hələlik məlum deyil. Aprelin 25-nə keçən gecə quyuda güclü partlayış baş verib. Yanğını indiyədək söndürmək mümkün olmayıb. Sumatra adasının Açe vilayəti neft və qaz ehtiyatları ilə zəngin ərazidir. Yerli əhali burada tez-tez çoxsaylı qanunsuz neft quyuları yaradır.

# Misir ordusu 30 terrorçunu məhv edib

Misir ordusunun ötən həftə Sinay yarımadasının müxtəlif rayonlarında apardığı antiterror əməliyyatı nəticəsində 30 ekstremist, o cümlədən yerli terror qruplaşmasının lideri məhv edilib. AZƏRTAC Misir Silahlı Qüvvələrinin bəyanatına istinadən xəbər verir ki, həmçinin terrorçularla əlaqədə şübhəli bilinən 200 nəfər saxlanılıb. Xatırladaq ki, ölkənin silahlı qüvvələri Prezident Əbdül Fəttah əs-Sisinin tapşırığına əsasən "Sinay-2018" irimiqyaslı antiterror əməliyyatları aparır.

***Heç bir birlik (nə qədər azad olsa da)... qanunlara söykənməsə dərhal dağılar və yox olar, onda kilsənin də öz qanunları olmalıdır ki, yığıncaqların yerinə və keçirilməsi vaxtına dair müəyyən qayda gözlənilsin, qəbul və xaric etmək üçün şərtlər, nəhayət, bütün vəzifələr, onların yerinə yetirilməsi qaydaları və s. müəyyən edilsin. Bu birlik könüllüdür və deyildiyi kimi, hər hansı zor və məcburiyyətdən azaddır. Buradan belə nəticə çıxır ki, qanunların yaradılması hüququ birlikdən başqa heç kəsə verilə bilməz, yaxud başqa yol olmadıqda birlik bunu ümumi razılıqla kiməsə tapşıra bilər.***

Dini birliyin məqsədi, artıq deyildiyi kimi, Allaha birlikdə sitayiş etməkdən və bunun müqabilində əbədi həyat əldə etməkdən ibarətdir. Buna görə də bütün təlim məhz bununla kifayətlənməli, kilsə qanunları bu çərçivələrdə fəaliyyət göstərməlidir. Bu birlikdə heç vaxt mülki və bəşəri nemətlərin əldə olunmasından söhbət getmir və gedə də bilməz; burada heç vaxt heç bir səbəblə bağlı bütövlükdə mülki hökmdarın səlahiyyətinə da-



Bunu müyyən edərək sonra baxaq görək dini dözümlülük qarşısında hər kəs hansı öhdəlikləri daşıyır.

Birincisi, mən bildirirəm ki, heç bir kilsə, dini dözümlülük prinsipi əsasında öyüdlərə baxmayaraq, daim birliyin qanunlarını pozan bir adamı öz qoynunda saxlamağa borclu deyildir. Çünki əgər kiməsə cəzasızlıq şəraitində qanunları pozmaq imkanı verilsə, onda birlik məhv olacaqdır, ona görə ki, bu

yatının puçluğuna inandığına görə bu dünyanın nemətlərindən məhrum olmamalıdır.

Din məsələlərində bir-birilə razılaşmayan fərdlərin qarşılıqlı dini dözümlülüyü haqqında dediklərini ayrı-ayrı kilsələr haqqında da demək istəyirəm. Bu kilsələr bir-birinə münasibətdə müəyyənmənada fərdi şəxslərdir və onlardan heç biri (hətta, məsələn, mülki hökmdarın bu kilsəyə deyil, digərinə aid olduğu halda da) digərinə münasibətdə heç bir üstün hüquqa malik deyildir.

Bunu nümunə ilə göstərmək üçün, tutalım, Konstantinopolda iki kilsə mövcuddur: biri remonstrantlara digəri antiremonstrontlara məxsusdur. Kimsə deyə bilər ki, onlardan biri digərlərini onunla razılaşmadıqlarına, başqa təlimə və ayinlərə riayət etdiklərinə görə (başqa yerlərdə gördüyümüz kimi) azadlıqdan məhrum, yaxud əmlakını əlindən ala, sürgün edə, yaxud ölümlə cəzalandıra bilər? Türk isə xristianların bir-birini necə amansızlıqla və qəddarcasına qırdıqlarına kənardan baxaraq sakitcə gülümsəyərdi. Əgər bu kilsələrdən




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Vicdan azadlıqlarını təmin edən qanunlar

xil olan zor tətbiq edilməməlidir.

Sən deyə bilərsən ki, əgər heç bir məcburiyyət yoxdursa, kilsə qanunlarının təsir qüvvəsini hansı sanksiya təmin edə bilər? Cavab verirəm: elə şeylər ki, əgər onlar ürəyin dərinliklərində özünə yer eləməyibsə və vicdanla tam razılığa gəlməyibsə, onda formal sitayişin və hörmətin heç bir əhəmiyyəti yoxdur. Bu isə o deməkdir ki, yolagətirmə, tövsiyə, məsləhət, öyüd bu birliyin üzvlərini öz borcları çərçivəsində saxlamalı olan silah budur. Əgər bu vasitələr günahkarları islah etməsə və yanılanları haqq yoluna qaytarmasa, inadkarlıq edənləri və müqavimət göstərənləri, düzəlmək ümidi olmayanları birlikdən xaric edib, qovmaqdan başqa bir şey qalmır. Bu, hər hansı digər cəza tədbirinə malik olmayan kilsə hakimiyyəti zorakılığının yüksək və ifrat ifadəsidir, bundan başqa, kəsilmiş bədən üzvünün bədənlə əlaqəsi qırıldığı kimi, haqqında hökm çıxarılmış adam da daha bu kilsənin bir hissəsi deyildir.

qanunlar birləşməni şərtləndirən, həm də bərkidən yeganə amildir. Lakin imkan verilməməlidir ki, kilsədən qovulma haqqında qərar təhqiredici sözlər, yaxud zor hərəkətləri ilə müşayiət olunsun.

İkincisi, heç bir şəxs başqasının mülki nemətlərə yalnız onun istəmədiyi din və ayinlərdən imtina etdiyinə görə heç bir halda təcavüz etməməli, yaxud ona ziyan vurmamalıdır. Bu adamın bütün insani və mülki hüquqları müqəddəscəsinə gözlənilməlidir, çünki onların dinə dəxli yoxdur - xristian, yaxud bütpərəst olmasından asılı olmayaraq heç bir zora və qanunsuzluğa yol verilməməlidir. Xeyirxahlıq və insanpərvərlik borcu hüquqi yanaşmadan da üstün olmalıdır. Bunu İncil buyurur, bunu ağıl və bəşəriyyət arasında təbiət tərəfindən bərqərar edilmiş ittifaq tələb edir. Əgər kimsə haqq yolundan çəkilirsə, bu, yalnız onun özünün bədbəxtliyidir, sənin üçün isə heç bir zərər yetirə bilməz; buradan da o, sənin tərəfindən təhqirlərə məruz qalmamalıdır, yalnız sənin onun gələcək hə-

birinin digərini təqib etmək üçün hakimiyyəti varsa, onda soruşmaq istəyirəm ki, ikisindən hansı biri və hansı haqla? Əlbəttə, mənə cavab verəcəklər ki, ortodokslar azmışlara, yəni dönüklərə qarşı. Ancaq bu təmtəraqlı və gözəl sözlər, əslində, heç nə demək deyildir. İstənilən kilsə özü üçün ortodoksal, başqaları üçün dönükdür, ona görə ki, hər biri inandıqlarına həqiqət, əks baxışlara isə yanlışlıq kimi baxır. Beləliklə, ehkamların həqiqiliyi, ayinlərin düzgünlüyü haqqında mübahisələrdə hər iki kilsə eyni dəlillərə əsaslanır və hökmdar düzgün hökm çıxara bilmir, heç belə hökmdar nə Konstantinopolda, nə də ümumiyyətlə, yer üzündə var. Hökm yalnız bütün insanlar üzərində məhkəmə quran yeganə Ali Hökmdarındır və yolunu azmışı yalnız O özü günahlandıra bilər. Ancaq təsəvvür et ki, mülki hökmdar tərəfindən birinə rəqbət bəsləyir və öz qılıncını ona verməyə hazırdır ki, başqa cür inananları onun razılığı ilə azad şəkildə təqib etsin. Məgər kimsə deyə bilərmi ki, xristian kilsəsi türk sultanından öz qardaşlarına qarşı hansısa hüquq ala bilər? Kafir öz hakimiyyəti ilə dini ehkamlara görə xristianları cəzalandıra, bundan da başqa, hər hansı xristian birliyinə özünün malik olmadığı elə hakimiyyət və hüququ verə bilməz. Təsəvvür et ki, xristian krallığında da vəziyyət belədir. Mülki hakimiyyət hər yerdə öz-özlüyündə qalır və kilsəyə xristian hökmdarın dövründə bütpərəst hökmdarın dövründəkindən çox və ümumiyyətlə, heç bir iqtidar verə bilməz. Yeri gəlmişkən, çox maraqlıdır ki, haqqın bu cəsur xidmətçiləri, yanlışlıqları dağıdanlar, parçalanmaya dözümsüzlər bütün vücudları ilə keçirdikləri dini yanğıların, mülki hökmdarın xeyir-dua verdiyi hallar istisna olmaqla, demək olar ki, heç vaxt nümayiş etdirmirlər. Onlar hökmdarın rəğbəti və yardımı ilə güclənən kimi, sülh pozulur və xristian insanpərvərliyi yox olur, bu yardım olmayanda isə qarşılıqlı dözümlülüyə riayət etməyə məcbur olurlar.

Üçüncüsü, baxaq görək dini dözümlülük borcu, özlərinin belə deməyi xoşladıqları kimi, xüsusi kilsə funksiyalarına görə yerdə qalanlardan və icma kütləsindən fərqlənənlərin - yepiskop, keşiş, pastor, xuddam və b. (özlərini necə adlandırmalarının fərqi yoxdur) qarşısında hansı tələbləri qoyur. Mənşəyindən asılı olmayaraq o, kilsə hakimiyyəti olduğuna görə kilsə hüdudları ilə məhdudlaşdırılmalı və heç bir halda mülki işlərə yaxın buraxılmamalıdır. Belə ki, kilsə özü tam və qəti şəkildə dövlət işlərindən və mülki işlərdən ayrılmışdır.

Ruhani şəxslər üçün təkcə özlərinin zor, qarət və hər cür sıxışdırmalardan imtina etməsi kifayət deyildir; özünü apostolların varisi adlandıran və öyüd vermək yükünü üzərinə götürən hər bir kəs bununla öz şagirdlərini bütün insanlara münasibətdə sülhsevərliyə və xoşniyyətliliyə yönəltməli və hamını sadə şəxsləri və dövlət hakimlərini (əgər beləleri öz kilsələrinin üzvləri olsalar) insanpərvərliyə, həlimliyə, dözümlüyə çağırmalıdır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

səs

Son səhifə 26 aprel


## Roma papası ad günündə yoxsullara dondurma paylayıb



Roma papası Fransisk ad gününü yoxsul və evsiz romalılarla qeyd edib, onlara dondurma paylayıb. AZƏRTAC xəbər verir ki, Romadakı xeyriyyə evlərində, ictimai yeməkxanalarda 3 minə yaxın evsizə və yoxsula dondurma verilib.

## Fəsil dəyişikliyi zamanı yaranan hallar

Yazın gəlişi və havaların isinməsi təbiəti canlandırdığı kimi, bir sıra xəstəliklərin də fəallaşmasına səbəb olur. Gecələrin qısalması, günlərin uzanması, saatların dəyişməsi və digər faktorlar orqanizmin hormon tarazlığını dəyişərək yuxu nizamına təsir edir. Baş verən dəyişikliklər isə orqanizmin kifayət qədər dincələ bilməməsi, davamlı yorğunluq və unutqanlıq kimi nəticələr verir.

AZƏRTAC xəbər verir ki, yazda ən çox rast gəlinən problemlər içərisində allergik xəstəliklər birinci sırada dayanır. Statistikaya görə, dünyada hər on nəfərdən ikisi allergiyadan əziyyət çəkir.

Allergik xəstəliklərin yaranma səbəbi havada uçuşan polen adlı çiçək tozlarıdır. Mövsümi allergiya nəticəsində gözdə qızarma, qaşınma və reaksiya ilə əlaqədar olaraq damar genişlənməsi əmələ gətirir. Bu baxımdan şiddətli yanma, işığa baxa bilməmək və bulanıq görmə yaranır. Bahar aylarında sıx müşahidə olunan göz soyuqdəymələri sadəcə allergik mənşəli deyil, keçici də ola bilər. Tozlardan qorunmaq üçün yaz və yay aylarında gün eynəklərindən istifadə etmək məsləhətdir.

Gözə əllə təmasdan mümkün qədər uzaq olmaq ən vacib şərtlərdən biridir. Bahar yorğunluğunun qarşısını almaq üçün günəşin erkən çıxmasından faydalanaraq yuxudan tez durmaq, hər gün eyni saatda yatıb qalmağa çalışmaq, gündəlik həyatda daha fəal olmaq, sutka ərzində bir neçə dəfə idmanla məşğul olmaq, piyada gəzməyə üstünlük vermək, hazır qidalar əvəzinə təzə meyvətərəvəz qəbul etmək lazımdır. Psixoloji baxımdan toparlanmaq, müsbət əhvali-ruhiyyəyə köklənmək də müsbət əhəmiyyətə malikdir.

## Nostalji duyğular gələcəyin qəbul edilməsinə müsbət təsir göstərir

Beynəlxalq alimlər qrupu bildirib ki, nostalji duyğular gələcəyin qəbul edilməsinə müsbət təsir göstərir, onu daha nikbin edir. Elmi iş "Researchgate" nəşrində dərc olunub.

AZƏRTAC "vistanews.ru" saytına istinadla xəbər verir ki, tədqiqatın nəticələrinə görə, nostalji duyğular təkcə məmnunluq gətirmir, həm də insanın psixoloji və fiziki vəziyyətinə üstünlük verir. Eksperimentin gedişində şüurlu nəzarət və nostalgiyanın üstünlüklərindən biri arasında bağlılıq məsələsi araşdırılıb. Məlum olub ki, insanlar baş verən hadisələrə dərin diqqət ayırırlar. Bu da özlüyündə oxşar duyğuların yaranması üçün zəmindir. Alimlərin sözlərinə görə, bu proses emosiyaların nizamlanmasına və ümumi əhvalın yaxşılaşmasına kömək edir. Əksər hallarda güclü nostalji duyğular qeyri-ixtiyari olur və təsadüfi hissedici stimulla, məsələn, mahnı və qoxu ilə əmələ gəlir. Bu səbəbdən alimlər xoş hadisələri yadda saxlama prosesinə nəzarət etməyi məsləhət görürlər ki, bu da gələcəkdə yaranan nostalji hisslərə müsbət təsir göstərir.


## Elan

**"SAMFA İNŞAAT DEKORASYON PEYZAJ SANAYİ VE TİCARET LİMİTED" ŞİRKƏTİNİN AZƏRBAYCAN RESPUBLİKASINDAKI FİLİALI (VÖEN:1402388421) aşağıda qeyd olunan sənədlərin və möhürün itirilməsi ilə əlaqədar etibarsız sayılsın.**

1. Cəmiyyətin Əsasnaməsi
2. Dövlət reyestrindən çıxarış
3. Vergi uçotu haqqında şəhadətnamə (VÖEN)
4. Möhür


## Paddi Lou: "Azərbaycan azarkeşlərini maraqlı mənzərə ilə sevindirmək istəyirik"



"Williams" komandasının üzvləri Bakıda ciddi irəliləyişə nail olmağı gözləməsələr də, qarşıdakı yürüşləri səbirsizliklə gözləyirlər. AZƏRTAC xəbər verir ki, komandanın texniki direktoru Paddi Lou deyib: "Bu uik-enddə biz Bakıda üçüncü dəfə - həm İçərişəhərdə asta sürətlə keçilməli olan sahələri, həm də çox uzun, düz start-finişi özündə birləşdirən maraqlı şəhər trasında çıxış edəcəyik. Bakı mərhələsi F1 çempionatının təqviminə çox gözəl əlavə oldu.

Ötən il biz maraqlı hadisələrlə zəngin yürüşün və Lens Strollun podiuma çıxması kimi unudulmaz səhnənin şahidi olduq. Bu, mövsüm ərzində yeganə hal idi ki, ən güclü üç komandadan olmayan yürüşçü finişə ilk üçlükdə çatmışdı. İndi yürüş mövsümün başlanmasına yaxın keçiriləcək, yəqin ki hava daha sərin olacaq. Biz Bakıya qayıtmağımızı səbirsizliklə gözləyir və maraqlı çıxışımızla Azərbaycan azarkeşlərini sevindirmək istəyirik. Rusiya Azərbaycanın yaxın qonşusudur. Ona görə də Sergey Sirotkinin Bakıda ilk yürüşündə onu yəqin ki, ciddi dəstəkləyəcəklər. Lens Srtollun podiumunun təkrarlanmasını gözləmək çox cəsarət tələb etsə də, keçənilki uğuru nəzərə alsaq, o, yaxşı çıxış etməlidir".

Pilot Lens Stroll: "Bakını böyük məmnuniyyətlə yada salıram. Formula 1-də ilk dəfə qaliblər kürsüsünə qalxdığım günü heç vaxt unutmaram. Bizi həm maraqlı tras, həm də gözəl şəhər gözləyir. Ötən ilədək mən Bakıda olmamışam, lakin artıq bir çox yerlərə baxa bilmişəm. Konfiqurasiya yüksək texnikalıdır, dairə uzundur və maşının saz olmasını tələb edir, tras divarlarla əhatə olunduğundan, siz kiçik bir səhvə də yol verməməlisiniz".

Pilot Sergey Sirotkin: "Uzun, düzxətli və dəqiq tormozlama zonaları ilə seçilən sürətli sahələrin daxil olduğu Bakı trası çox mürəkkəbdir. Orada səhvə yer yoxdur. Bu da ötmə imkanlarını və yürüşə marağı daha da artırır. Ötən il komanda Bakıda uğurla çıxış edib. Ümid edirəm ki, hər şey yaxşı olacaq".

## Səudiyyə kralı Məhəmməd Salaha Məkkədə torpaq sahəsi hədiyyə edib



Səudiyyə Ərəbistanının kralı Salman bin Əbdüləziz Al Səud misirli futbolçu Məhəmməd Salaha böyük jest edib. AZƏRTAC xəbər verir ki, İngiltərənin "Liverpul" klubunda oynayan Məhəmməd Salaha cari mövsümün ən yaxşı oyunçusu seçildiyi üçün müsəlmanların müqəddəs şəhəri Məkkədə torpaq sahəsi hədiyyə edilib. Bu haqda Məkkə şəhərinin bələdiyyə rəisi Faxd ar-Rouki bildirib. O qeyd edib ki, bu hədiyyə, eyni zamanda, futbolçuya müsəlman gənclərinə yaxşı örnək olduğu üçün verilib. Qeyd edək ki, 25 yaşlı Salah Peşəkar Futbolçular Assosiasiyasının qərarı ilə İngiltərə çempionatının ən yaxşı oyunçusu seçilib. Hücumçu 33 oyunda 31 qol vurub, 9 məhsuldar ötürmə verib.

## Motorsport.com portalı Formula 1 Azərbaycan Qran-Prisindən yazır


FORMULA 1 2018

Los horarios del GP de Azerbaiyán

İspandilli motorsport.com portalı Formula 1 Azərbaycan Qran-Prisini diqqət mərkəzində saxlayır. AZƏRTAC xəbər verir ki, portal Bakıda bu həftənin sonunda baş tutacaq yarışı, bu mövsümün Avropada keçirilən ilk Qran-Prisi kimi xarakterizə edir və yarışın detalları haqqında məlumat verir.

Yazıda, həmçinin Azərbaycan Qran-Prisinin yarış cədvəli, teleyayımın müxtəlif ispandilli ölkələr üzrə yayım saatları qeyd edilir.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**